YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
13 iyun 2026-cı il, şənbə
№ 102 (7169)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!



# Milli Qurtuluş Günü - Azərbaycan tarixinin dönüş nöqtəsi

Bax səh. 2

## Prezidentin tapşırığına əsasən...

Bax səh. 4

## Şuşa Bəyannaməsi: Avrasiyanın inkişaf və təhlükəsizlik doktrinası



Bax səh. 3

## Milli Məclis Prezident və Birinci vitse-prezidentə təbrik məktubları ünvanlayıb

Bax səh. 4

### İqtidar-müxalifət dialoqu davam edir

Bax səh. 5

### İqtisadi Şuranın iclasında

Bax səh. 5

### Qeyri-neft sektoru - Azərbaycanın iqtisadi gələcəyinin əsas təminatı

Bax səh. 5

### Virtuallıqla reallıq arasında...

Bax səh. 7

## 19 dövlət adından verilən bəyanat

Bax səh. 7



## Razılaşmanın əksər hissəsi təsdiqlənib

Bax səh. 7

## Avropa “hərəkətə” keçdi...

Üçlük Ukrayna məsələsini öz monopoliyasına almağa çalışır

Bax səh. 7

# Milli Qurtuluş Günü - Azərbaycan tarixinin dönüş nöqtəsi

Müstəqilliyinin yaşı elə də çox olmayan Azərbaycanın həyatında ölkəmizin, xalqımızın bu günü və gələcəyi üçün müstəsna önəm daşıyan bir neçə tarixi günü xüsusi fərqləndirə bilərik. Bunların siyahısında 15 İyun Qurtuluş Günü ən ön sırada dayanır.

Bu tarix Özünün müdrik zəkası və fədakar fəaliyyəti ilə ötən əsrin 70-80-ci və 90-cı illərinin əvvəlində Azərbaycanın inkişaf salnaməsini yazan, xalqımızın ümummilli lideri səviyyəsinə yüksələn böyük siyasətçi Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın təkidli tələbi və o dövrdəki iqtidarın xahişi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdıb ölkəni böhran vəziyyətindən çıxarmaq üçün 1993-cü il 9 iyun tarixində Naxçıvandan xüsusi təyyarə ilə Bakıya gələn Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib. 1993-cü il iyunun 24-də Milli Şuranın qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə verilib. 1997-ci ilin iyun ayında isə Milli Məclis 15 iyunu bayram günü elan edib. Qurtuluş Gününə yüksək dəyər verən Prezident İlham Əliyev "Danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi", - deyə vurğulayıb.

**Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra Azərbaycanda problemlər yaranmağa başladı**

Heydər Əliyev ötən əsrin 70-80-ci illərində birinci dəfə Azərbaycana rəhbərlik edərkən respublikamızı güclü inkişaf yoluna çıxarmağa nail olmuşdu. Çox doğru olaraq həmin illərdə Heydər Əliyevin yorulmaz fəaliyyəti və milli təəssübkeşliyi sayəsində yaradılan iqtisadi və ideoloji əsaslar Azərbaycanın müstəqilliyinin möhkəm bünövrəsi kimi dəyərləndirilir. Heydər Əliyev həmçinin Qarabağda erməni separatçılarının baş qaldırmalarına imkan vermirdi, təxribatların qarşısını vaxtında və qətiyyətlə alırdı.

Böyük siyasətçi Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verdi. Bununla da Azərbaycanda problemlər yaranmağa başladı. Onun istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların keçmiş sovet iqtidarında olan himayədarları keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmış və Azərbaycan xalqının faciələri o gündən başlamışdır. Əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər.

Həmçinin ölkə daxilində də çox ziddiyyətli vəziyyət yaranmışdı. Dövlət müstəqilliyinə nail olmaq hər bir xalqın müqayisəyəgəlməz tarixi nailiyyətidir. Azərbaycan da keçmiş ittifaq məkanında gedən məlum proseslər nəticəsində 1991-ci ildə XX əsrdə ikinci dəfə müstəqillik qazanmağa müvəffəq oldu. Ancaq müstəqilliyimizin ilk illərində xalqımız bir sıra məhrumiyyətlərə qatlaşmaq məcburiyyətində qaldı. Bunun da əsas səbəbi o dövrdə hakimiyyətdə olan bütün qüvvələrin dövlətçilik təfəkküründən uzaq olmalarında idi. Vəzirov-Mütəllibov rejiminin, daha sonra Xalq Cəbhəsi-"Müsavat" cütlüyünün Azərbaycanı Heydər Əliyev yolundan döndərməyə çalışmaları böyük səhv idi. Həmin qüvvələr müstəqilliyin ilk illərində sağlam düşüncənin səsinə qulaq asıb, böyük siyasi xadimi - Heydər Əliyevi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan 20 Yanvar, Xocalı faciələrini yaşamazdı, Laçın, Şuşa xəyanətləri mümkün olmazdı, ölkə ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi.

Xüsusilə də 1992-ci ilin yazında hakimiyyəti zorla ələ keçirən və cəmi bir il iqtidarda qalan AXC-"Müsavat" iqtidarının səriştəsizliyi ucbatından müstəqilliyimiz və bütövlükdə ölkənin taleyi üçün çox ciddi təhdidlər yaranmışdı.1993-cü ildə respublikada artıq həyatın bütün sahələrini böhran bürümüşdü. Beləliklə, AXC-"Müsavat" cütlüyünün birillik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələndi. Hakimiyyəti zəbt etmiş qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü.

Problemlər getdikcə artırdı. Hakimiyyət strukturlarına, o cümlədən silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. 1993-cü il iyunun 4-də Gəncədə sabiq korpus komandiri və AXC-"Müsavat" hakimiyyətinin Qarabağ üzrə xüsusi nümayəndəsi Surət Hüseynovun rəhbərlik etdiyi 709-cu briqadanın ləğvi ilə bağlı qərar imzalanması isə Gəncədə böyük miqyaslı qarşıdurmaya rəvac verdi. Respublikanın ikinci böyük şəhərində qiyam başladı.

**Nüfuzlu liderə ehtiyac duyulurdu - xalq Heydər Əliyevin ölkənin siyasi rəhbərliyinə gəlməsini təkid edirdi**

Müstəqilliyimiz sürətlə süquta doğru gedirdi. Aydın görünürdü ki, AXC-"Müsavat" iqtidarı ölkədəki vəziyyəti düzəltmək, iqtisadi tənəzzülün qarşısını almaq, Surət Hüseynovun qiyamçı dəstəsini dayandırmaq iqtidarında deyil. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalının davam etməsi, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyin yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə lider məhz Heydər Əliyevdir. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Paytaxtda və regionlarda xalq mitinqlərə toplaşaraq böyük dövlətçilik təcrübəsi olan Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasını tələb edirdi.




Eyni zamanda, Gəncə qiyamı baş verəndən sonra AXC-"Müsavat" iqtidarının təmsilçiləri də Heydər Əliyevin yeganə ümid yeri olduğunu etiraf etməyə başladılar və Ondan bir neçə dəfə Bakıya gəlib ölkəyə rəhbərliyi həyata keçirməyi xahiş etdilər. Əslində, Gəncədə baş verən hadisələrdən sonra o dövrdəki iqtidar mənsublarının Ulu Öndər Heydər Əliyevi Bakıya dəvət etmələri xalqın təkidli tələbləri ilə hesablaşmaqdan daha çox özlərinin xilasını düşünmələri ilə bağlı idi. Yada salaq ki, məhz AXC-"Müsavat" hakimiyyəti 1992-ci il oktyabrın 24-də Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişinə cəhd göstərmişdi. Onların məqsədi naxçıvanlılar tərəfindən yekdilliklə Ali Məclisin Sədri seçilən Ulu Öndərimizi bu vəzifədən uzaqlaşdırmaq idi. Ancaq alınmadı. Bu hadisədən xəbər tutan Naxçıvan camaatı ayağa qalxdı və dağıdıcı ünsürlərə tutarlı cavab verdi.

Görkəmli dövlət xadimi Heydər Əliyev o dövrün Azərbaycanını belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

**Naxçıvandan başlayan qurtuluş yolu bütün ölkə miqyasında davam etdirildi**

Tam cəsarətlə demək mümkündür ki, bəhs olunan dövrdə Azərbaycanın müstəqilliyə gedən yolunun, qurtuluş tarixinin əsası Ümummilli Lider Heydər Əliyevin səyləri və cəsarəti sayəsində məhz qədim diyarda-Naxçıvanda qoyulub. Məlumdur ki, Heydər Əliyev keçmiş ittifaq rəhbərliyində tutduğu bütün vəzifələrdən istefa verdikdən sonra Bakıya qayıtmaq, doğma xalqı ilə bir yerdə olmaq istəyirdi. Bu qayıdış 1990-cı ildə baş tutsa da, imperiya nökərləri-bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Ulu Öndər doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. Ulu Öndər, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra-17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Həmin sessiyada Heydər Əliyevin cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün cəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək onun Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Bu gün Heydər Əliyevin o dövrdə atdığı cəsarətli addımlar kimlərə isə adi görünə bilər. Lakin bu, belə deyil. Bəhs olunan dövr çox ziddiyyətli idi, hadisələrin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çətin idi, hələ Sovet İttifaqı, kommunist partiyası fəaliyyət göstərirdi. Heydər Əliyev isə təhdidlərdən, Özü və ailəsi üçün yarana biləcək təhlükələrdən çəkinməyərək, respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail oldu. Bir qədər sonra-1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

Ulu Öndərin bu kimi cəsarətli addımları bütün Azərbaycan üçün müstəqilliyə bir çağırış idi. Heydər Əliyev respublikanın o vaxtkı rəhbərliyinin "bəlkə də qaytardılar" mövqeyində qalmasına baxmayaraq, çəkinmədən müxtəlif tribunalardan yolumuzun müstəqillik yolu olduğunu bildirdi.

Sonradan isə Heydər Əliyev Naxçıvandan başladığı qurtuluş yolunu bütün ölkə miqyasında davam etdirmək missiyasını yerinə yetirdi. Yuxarıda təsvir etdiyimiz ağır şəraitdə respublikamızda hakimiyyətə gəlmək böyük məsuliyyət idi. Başqa birisi olsaydı, siyasi karyerasını təhlükəyə atmadan çəkinər və gözləmə mövqeyində dayanardı. Ancaq söhbət bütün varlığı ilə xalqına bağlı olan, doğma Azərbaycanı çox sevən Heydər Əliyevdən gedirdi. Şüurlu həyatını respublikanın inkişafına həsr etmiş bu dahi şəxsiyyət həmin çətin günlərdə Özünü proseslərdən kənarda saxlaya bilməzdi və bilmədi də!

**Tənəzzüldən tərəqqiyə - Azərbaycan xalqına sədaqətlə xidmət**

Böyük siyasətçi Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçilməsi, iyunun 24 -də isə Milli Şuranın qərarı ilə respublika Prezidentinin səlahiyyətlərinin Ona ötürülməsi ilə Azərbaycanda yeni bir tarix yazılmağa başlandı - ölkə tənəzzüldən tərəqqiyə istiqamətləndi. Ulu Öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilib. Xalq respublikamızda 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə də Ulu Öndərə böyük etimadını növbəti dəfə nümayiş etdirərək Onun namizədliyini dəstəkləyib. Heydər Əliyev bu dəfə seçicilərin 76,1 faizinin səsini toplayaraq yenidən Azərbaycan Prezidenti seçilib. Heydər Əliyev ilk dəfə Prezident seçildikdən sonra andiçmə mərasimində bildirib ki, ömrünün sonunadək Azərbaycan xalqına sədaqətlə xidmət edəcək. Sonradan bu vəd bütünlüklə yerinə yetirildi. Onun fədakarlığı, misilsiz uzaqgörənliyi ilə nail olduğumuz qurtuluşun aşağıdakı rəmzlərini böyük məmnunluq hissi ilə qeyd edə bilərik:

- Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası Azərbaycanı məhv olmaqdan, parçalanmaqdan xilas etdi.
- Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu.
- Nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişəsinin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı.
- İdarəetmə sistemi formalaşdırıldı, insanlara öz dövlətinə inamı qaytarıldı.
- Neft müqavilələri imzalandı, Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu.
- Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu.
- İlk parlament seçkiləri keçirildi və referendum yolu ilə Konstitusiya qəbul edildi.
- Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı, ölkənin dünya birliyinə inteqrasiyası prosesi sürətləndi.
- Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı.

**Bugünkü müstəqil, suveren, güclü Azərbaycan Heydər Əliyev siyasətinin təntənəsidir**

Ulu Öndərin əsasını qoyduğu işləri sonrakı mərhələdə Prezident İlham Əliyev eyni ardıcıllıqla davam etdirir. Aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin tam təmin edilməsi böyük uğurdur. Bu gün respublikamız heç bir güc mərkəzindən asılı deyil, öz problemlərini özü həll etmək iqtidarındadır. Verilən siyasi qərarlar da məhz paytaxt Bakıda dövlətimizin başçısı tərəfindən imzalanır. Real müstəqillik də məhz bundan ibarətdir. Bugünkü müstəqil, suveren, güclü Azərbaycan Heydər Əliyev siyasətinin təntənəsidir.

Burada daha bir məqamı da xüsusi qeyd etmək istərdik. Məlumdur ki, Azərbaycan xalqının mental dəyərlər sistemində ata vəsiyyətinin yerinə yetirilməsi mühüm yer tutur. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Liderin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiyi fikir belə idi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Bu gün Ulu Öndərin arzuları həyata keçib - torpaqlarımız işğaldan azad edilib, ölkənin bütün ərazisində suverenliyimiz tam təmin edilib. Prezident İlham Əliyev xoşbəxt övladdır, qeyrətli oğuldur ki, ata vəsiyyətini yerinə yetirməyə müvəffəq olub. Bu gün Azərbaycan xalqı qürur duyur ki, Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xankəndidə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Şanlı zəfərlərimiz tarixdə əbədi qalacaq!

**Görkəmli dövlət xadimi Heydər Əliyev o dövrün Azərbaycanını belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər"**

*Mübariz ABDULLAYEV*

# Şuşa Bəyannaməsi: Avrasiyanın inkişaf və təhlükəsizlik doktrinası



## Azərbaycan-Türkiyə strateji müttəfiqliyi: iki qardaş ölkə hədəflərini, prioritetlərini, strategiyasını birləşdirdi...

44 günlük Vətən müharibəsi həm Cənubi Qafqaza, həm yaxın coğrafiyaya, həm də qlobal dünyaya hərbi-siyasi, iqtisadi-ticari kontekstdə yeni bir şəkilləndirmə qazandırdı. 2020-ci ilin noyabrından sonra Avrasiyanın mərkəzi yeni təhlükəsizlik arxitekturasının qurulduğu, yeni iqtisadi nizamın şərtlərinin müəyyənləşdiyi, yeni əməkdaşlıq platformalarının reallaşdığı bir geostrateji məkana çevrildi. Bəli, xüsusilə təhlükəsizlik meyarının dayanıqlı olması bu coğrafiyanı özünün digər analogiyalarından fərqləndirirdi - Bakının formalaşdırdığı yeni situasiyada 4 cəhət üzrə təhlükəsizlik kodeksi müəyyənləşdirilmişdi ki, bunun da arxasında olduqca mühüm ştrixlər dayanırdı. Azərbaycan son 200 ildə ilk dəfə idi ki, Cənubi Qafqazın müstəqil aktor olaraq qlobal geosiyasi palitrada çıxış etməsi üçün münbit şərait yaratmışdı.

Vurğulandığı kimi, 2020-ci ildən sonra regionumuzda yeni bir tarix başladı - bu tarix bir çox nüanslarına görə, həm də “arzuların tarixi” adlanır. İllərlə arzu kimi görünən bir çox məqamlar məhz bu tarixdə gerçəyə çevrildi - Türkiyə - Azərbaycan qardaşlığının ayrılmaz, qırılmaz bağlarla bir-birinə sarılması gerçəyi kimi...

**Bir yumruq, bir millət, bir amal...**

Vətən müharibəsi və onun nəticələri bir çox siyasi hadisələri gerçəkləşdirdi - xüsusilə, Türk dünyasının konselidasiyasını, əsrlərlə eyni soya, eyni kökə malik dövlətlərin vahid bir platformada daha effektiv birliyinə yol açıldı. Bu günün rakursundan boylandıqda XXI əsrin ikinci onilliyinin əvvəlində atılan təməllərin gələcək üçün nə qədər möhkəm sistem formalaşdırdığını görürük. “Türk əsri” adlandırılan XXI əsrin ilk rübündə Türk dünyası yeni bir ocaq, yeni bir masa arxasında bir yumruğa çevrildi. İki qardaş ölkə - Azərbaycan ilə Turkiyə türk birliyi üçün yeni bir tarixi təməl atdı.

Azərbaycan-Türkiyə münasibətləri haqda xüsusi olaraq bəhs açmağa ehtiyac yoxdur - bu münasibətlər qardaşlıq, dostluq və yaxın qonşuluq nümunəsidir - bütün dünya üçün, xüsusilə Türk dünyası üçün bu nümunə sülhün, əmin-amanlığın, etimadın və sevginin, ən çətin anda, ən xoş gündə yanaşı addımlamağın, çiyin-çiyinə dayanmağın etalonu kimi çıxış edir. İki ölkə arasında bütün əlaqələr: siyasi, mədəni, iqtisadi və digər sahələrdəki əməkdaşlıq əlaqələri dostluq və qardaşlıq kimi dəyərlər üzərində güclənir. Tarixi əsasını hələ minilliklər öncədən başladan, müasir tarixdə isə Ulu Öndər Heydər Əliyevin ifadə etdiyi kimi, “Bir millət, iki dövlət” prinsipi ilə inkişaf edən Türkiyə-Azərbaycan münasibətləri möhkəm təməllər üzərində qurulub. Ulu Öndərin siyasi kursunu uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyev də öz xarici siyasətində hər zaman dost, qardaş ölkə olaraq Türkiyənin mənafeyini və maraqlarını qoruyur, dəstəkləyir. Qardaş Türkiyə də qəbul etdiyi qərarlarda, apardığı siyasi xətdə Azərbaycanın milli maraqlarını nəzərə alır. Tarixən eyni soy-kökə malik olan Azərbaycanın və Türkiyənin qarşılıqlı olaraq bir-birlərinin nailiyyətlərindən qürur duymaları, o cümlədən bu nailiyyətlərin davamının, inkişafının olması istiqamətində fəaliyyət göstərməsi hər zaman qeyd olunub. Azərbaycan və Türkiyə dünyada bir-birinə mənəvi-siyasi cəhətdən ən yaxın iki dövlətdir. Gücünü, siyasətini, mili hədəflərini, inkişaf yolunu birgə müəyyənləşdirən, birgə seçən Türkiyə-Azərbaycan qardaşlığı bütün mənalarda sarsılmazdır...

**İki qardaş, vahid hədəf...**

İki qardaş artıq illərdir ki, bütün çətinliklərin, problemlərin, təzyiq və ya təhdidlərin, təhlükələrin, hətta təbii fəlakətlərin qarşısında çiyin-çiyinə dayanır. Bir yerdə sevinir, bir yerdə kədərlənirik. Bu birlik, bu bağlılıq isə təbii olaraq siyasi masa üzərində də bütün dünyaya nümayiş etdirilməli idi. Azərbaycan tarixinin ən həssas məkanı olan Şuşa şəhəri bu qardaşlığın, bu sarsılmaz birliyin fundamental şəkildə təsdiqi məkanı kimi seçildi - tarixi dəyərlər üzərində qurulan strateji müttəfiqlik nəinki regionda, bütövlükdə Avroasiyada yeni siyasi münasibətlər sistemi formalaşdırdı. Birliyi, həmrəyliyi sözdə yox, əməldə nümayiş etdirən Azərbaycan ilə Türkiyə ən çətin sədləri belə yanaşı keçmək qərarını verdilər - İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını və möhkəm təməllərə əsaslandığını bir daha nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, yeni bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. İki ölkənin çiyin-çiyinə duruşu, Türkiyənin siyasi dəstəyi qələbəmizdə böyük əhəmiyyət daşıdı. Təsadüfi deyildi ki, qələbə bəyanatının imzalanmasının səhərisi, noyabrın 10-da Prezident İlham Əliyev Türkiyənin o dövrkü xarici işlər naziri Mövlud Çavuşoğlunu, milli müdafiə naziri Hulusi Akarı və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidanı qəbul edərkən bildirmişdi ki, 44 gün ərzində qardaş Türkiyənin dəstəyini biz hər an hiss edirdik, bütün Azərbaycan xalqı hiss edirdi: “Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir”.

Və bu birlik 2021-ci ildə tarixi Şuşa Bəyannaməsinin imzalanmasına vəsilə oldu...

**Strateji müttəfiqlik - yanaşı addımlayan qardaşlar!**

Azərbaycanla Türkiyə arasında 2021-ci ilin 15 iyun tarixində imzalanan Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb etdi. Sənəddə Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsi sayəsində regionda yaranan yeni reallıqlar nəzərə alındı. Bəyannamədə müharibədən sonrakı mərhələdə Qafqaz regionunda sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi-nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində birgə səylərin artırılmasının zəruriliyi vurğulandı.

Bəyannamədə tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərilməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur. Bəyannamədə iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi kimi müddəalar öz əksini tapıb. Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

**Bakı Cənubi Qafqazın lideri, Ankara Avropanın aparıcı gücüdür...**

Bu bəyannamə bir daha təsdiqlədi ki, Türkiyə-Azərbaycan qardaşlığı, yalnız dövlətlərarası müsbət əlaqələrin mahiyyəti ilə sərhədlənmir - bu münasibətlərin dərinləşməsi, vahid hədəfə, gücə çevrilməsi həm də iki dövlət liderlərinin qarşılıqlı səmimi qardaşlıq münasibətindən qaynaqlanır. Bu amil həm də xalqlar arasındakı qardaşlığın simvoluna çevrilir. Bütün dünya bu gün beynəlxalq tədbirlərdə hər iki Prezidenti yan-yana, əl-ələ irəlilədiyini görür. Artıq qlobal miqyasda belə Azərbaycanın uğuru Türkiyənin, Türkiyənin uğuru isə Azərbaycanın nailiyyəti kimi qəbul edilir. Bütün beynəlxalq platformalarda bu reallıq hər kəs tərəfindən qəbul olunur - Türkiyə və Azərbaycan vahid hədəfə istiqamətlənmiş xarici siyasi kursa malikdir. Biz maraqlarımızı qarşılıqlı şəkildə dünyanın bütün tribunalarında qorumağı bacarırıq.

Müasir beynəlxalq münasibətlər sisteminin mühüm struktur elementlərindən birinə çevrilmiş qlobal xarakterli Türkiyə-Azərbaycan münasibətləri qarşılıqlı-faydalı əməkdaşlığa əsaslanaraq mütəmadi surətdə inkişaf etməkdə və yeni keyfiyyət çalarları ilə zənginləşməkdədir. Vurğulanması zəruri olan məqam budur ki, Azərbaycanla Türkiyənin qarşılıqlı-faydalı əməkdaşlığını uğurlu edən başlıca strateji əsaslar məhz hər iki ölkənin regional miqyasda və beynəlxalq müstəvidə bir-birinə dəstək olması, eyni zamanda, Ankara ilə Bakının dünya siyasətində mövqelərinin sürətlə güclənməsidir. Bəyannamənin imzalanmasından ötən 5 ildə qazanılan uğurlara nəzər salsaq görərik ki, Bakı artıq bütün meyarlar üzrə Cənubi Qafqazın lideri, Türkiyə isə Avropanın ən önəmli gücü kimi çıxış edir.

**Cənubi Qafqaz üçün yeni gələcək...**

2021-ci ildə rəsmiləşən strateji tərəfdaşlıq bölgəyə yeni perspektiv gətirdi:

- Məhz bu təməlin üzərində yeni əməkdaşlıq platformaları yaradıldı və ya genişləndirildi;
- Regional miqyaslı strateji təmaslar sıxlaşdı və bölgənin siyasi, iqtisadi və hərbi təhlükəsizliyi ən yüksək səviyyəyə çatdı;
- Regional miqyaslı, qlobal xarakterli müxtəlif enerji layihələrinin reallaşdırılması mümkün oldu.

Vurğulandığı kimi, ölkələrarası mövcud strateji tərəfdaşlıq münasibətləri regionda perspektiv əməkdaşlıq platformalarının gerçəkləşdirilməsini mümkün etdi - 2025-ci ildə Vaşinqtonda paraflanan sülh sazişinin, təsdiqlənən Zəngəzur (TRİPP) dəhlizinin təhlükəsizlik açarı məhz Şuşa Bəyannaməsi idi. Günümüzdə əməkdaşlıq çağırışlarının gerçəkləşməsi, regional münasibətlər sisteminin bütövlükdə yenilənməsi həm də Şuşa Bəyannaməsinə söykənir. Bu isə nəinki regional təhlükəsizlik sisteminin daha da möhkəmləndirilməsinə, hətta beynəlxalq təhlükəsizliyin təmin olunmasına əhəmiyyətli töhfələr bəxş edir.

**Şuşadan başlanan yollar...**

Şuşa Bəyannaməsi tarixi bir yolun başlanğıcına çevrildi. Cəmi 3 il sonra, 2024-cü ilin yayında Şuşada keçirilən TDT liderlərinin qeyri-rəsmi Zirvə görüşü məhz bu sənədin işığında Türk dünyasını bir masa arxasında topladı. Bu zirvədə 5 Türkdilli dövlət tərəfindən imzalanan Qarabağ Bəyannaməsi Şuşa Bəyannaməsinin davamı kimi çıxış etdi. Əgər Şuşa Bəyannaməsi yalnız Türkiyə ilə Azərbaycanın vahid güc mərkəzinə çevrilməsini reallaşdırdısa, bu sənədin davamı olan Qarabağ Bəyannaməsi böyük Türk dünyasına birlik, bərabərlik qazandırdı. Sənəd Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoydu. Bəyannamədə Türk xalqlarının qitə miqyasında töhfələri, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol ən yüksək şəkildə dəyərləndirildi. Sənəddə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd olundu. Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyi ortaya qoyuldu. Və bu yol Şuşadan başlamışdı, Şuşada da davam etdirildi...

**Türk əsrinin hədəfləri...**

Beləliklə, 2020-ci ildə 44 günlük Zəfərin simvoluna çevrilən Şuşa 2021-ci ildə sarsılmaz Azərbaycan-Türkiyə birliyinin carçısı, 2024-cü ildə isə böyük Türk Ailəsinin qardaşlığının şahidi oldu. Bu sənədlərin Şuşada imzalanması xüsusi anlam daşıyırdı. Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycanı rəsmən müttəfiq etdi, Qarabağ Bəyannaməsi isə Türk dünyasını vahid hədəflər uğrunda mübarizəyə səslədi. Şuşada imzalanan bu tarixi əhdlər, müqavilələr Türk dünyasının, Türk ailəsinin uğurlu gələcəyinin təməlidir. Şuşa Bəyannaməsi böyük Türk birliyinin təcəssümüdür. Eyni zamanda, Şuşa Bəyannaməsi iki ölkə arasındakı birliyin daha yüksək səviyyəyə qalxması baxımından mühüm əhəmiyyət kəsb edən tarixi sənəddir. Bu sənəd Azərbaycanın müstəqilliyi dövründə iki qardaş ölkə arasında imzalanan, hərbi təhlükəsizlik məsələlərini, onun müxtəlif parametrlərini özündə tam şəkildə göstərməkdədir. Məhz bu baxımdan Şuşa Bəyannaməsini regionda yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcı belə saymaq mümkündür.

Bu sənədlərin imzalanmasından ötən dövr ərzində demək olar ki, bütün sahələrdə konkret proqramlar əsasında birgə fəaliyyət nümayiş etdirilməkdədir. Türk Dövlətləri Təşkilatı, ayrıca Türkiyə və Azərbaycan Şuşa Bəyannaməsinin, Qarabağ Bəyannaməsinin regionun təhlükəsizliyi, davamlı sülhün formalaşdırılması, iqtisadi əlaqələrin gücləndirilməsi ilə bağlı müəyyənləşdirdiyi vahid proqram əsasında addımlarını intensivləşdirir. Ən əsası isə milli müdafiə sahəsində mühüm fəaliyyət nümayiş olunur. Silahlı Qüvvələrin birgə təlimlərinin keçirilməsi təhlükəsizlik seqmentinin daha da gücləndirilməsinə xidmət edir. Bu təlimlər, birgə fəaliyyət, bu sənəd isə rəsmi Türk ailəsi sayılan Türk Dövlətləri Təşkilatının gələcək inkişaf prioritetlərini müəyyənləşdirir.

*Pərviz SADAYOĞLU*

# Prezidentin tapşırığına əsasən...

## Kənd təsərrüfatının inkişafına dair Dövlət Proqramının icrası çərçivəsində regional müşavirələrə başlanılır



İyunun 12-dən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində regional görüşlərə başlanılır. Mərkəzi Aran, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, eləcə də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edəcək müşavirələrdə aidiyyəti dövlət qurumlarının rəhbərləri, səlahiyyətli nümayəndələr, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, fermerlər, sahibkarlar və digər maraqlı tərəflər iştirak edəcəklər.

Regional müşavirələr çərçivəsində Dövlət Proqramının əsas məqsəd və prioritetləri, aqrar sahədə nəzərdə tutulan yeni dəstək mexanizmləri, su və torpaq ehtiyatlarından səmərəli istifadə, aqrar emal və logistika infrastrukturunun inkişafı, eləcə də fermerlərin müasir aqrar xidmətlərə çıxışının genişləndirilməsi, bu istiqamətdə dövlət dəstəyi və digər məsələlər müzakirə olunacaq. Görüşlər Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il 25 may tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlarda əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə sistemli şəkildə təşkil edilir. Dövlət Proqramının icrası ilə bağlı regional müşavirələrin ölkənin digər iqtisadi rayonlarında da mərhələli şəkildə keçirilməsi nəzərdə tutulur.

**2025-ci ildə aqrar istehsal 14 milyard manatı ötüb**

Xatırladaq ki, 2025-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 14 milyard 189,5 milyon manat təşkil edib. Bu, 2024-cü illə müqayisədə 0,9 faiz çoxdur. Ötən il ölkədə bitkiçilik məhsullarının dəyəri 6 milyard 748,5 milyon manatla əvvəlki ilə nisbətən 1,5 faiz, heyvandarlıq məhsullarının dəyəri isə 7 milyard 441 milyon manat və ya 0,3 faiz artıb. Ötən il taxıl istehsalının həcmi 3,3 milyon ton, tərəvəz məhsulları 1,8 milyon ton, meyvə və giləmeyvə 1,4 milyon ton, kartof 924 min ton, bostan məhsulları 459 min ton, pambıq 363 min ton, şəkər çuğunduru 328,5 min ton, üzüm 210 min ton, günəbaxan 31,8 min ton, tütün 4 min ton, çay 1,2 min ton təşkil edib. Habelə 2025-ci ildə ölkədə diri çəkidə 659,2 min ton ət, 2 milyon 305,9 min ton süd, 2 milyon 342,9 milyon ədəd yumurta, 14,6 min ton yun və 186,6 ton barama istehsal olunub. Əvvəlki illə müqayisədə yumurta istehsalı 1,8 faiz, süd istehsalı 0,3 faiz artıb, ət istehsalı sabit qalıb, yun istehsalı isə 1,3 faiz azalıb.

2025-ci ildə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 3,6 milyard dolları təşkil edib ki, ixrac portfelində yeyinti məhsulları üzrə ixrac 1,2 milyard dollara bərabər olub. İxrac olunan şəkər əvvəlki ilin müvafiq dövrünə nəzərən 57,4 faiz, meyvə-tərəvəz 27,4 faiz, pambıq iplik 19,3 faiz, bitki və heyvan mənşəli piylər və yağlar 2 faiz artıb. Ötən il aqrar məhsullar üzrə ixrac ümumilikdə 26,7 faiz artaraq 1 milyard dollar təşkil edib. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 1,3 milyard dollara bərabər olub.

2026-cı ilin beş ayı ərzində isə 4 milyard manata yaxın kənd təsərrüfatı məhsulu istehsal edilib ki, artım dinamikası 2 faiz təşkil edib.

### Ərzaq məhsulları ilə özünü təminetmənin yaxşılaşdırılması

Sözsüz ki, aqrar sahədə inkişaf yerli ərzaq malları ilə təminatın yaxşılaşmasında əsas rol oynayır. Hazırda ölkəmizdə qida məhsulları ilə özünü təminetmə əmsalı bəzi məhsullar üzrə tam tələbatı ödəyir, bəziləri üzrə 70-80 faiz nisbətindədir, bəziləri üzrə isə 60 faizdən aşağıdır. Məhz bu nöqteyi-nəzərdən həmin əsas qida mallarının istehsal zəncirinin qurulması üçün davamlı tədbirlərə ehtiyac var. Daxili tələbatı ödəmək üçün istehsal sahələri genişləndiriləcək. Bitki yağları istehsalının artırılması üçün bitkiçilik sahəsinin dəstəklənməsi, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi planlaşdırılır. Eyni zamanda azı 2 bitki yağı emalı zavodunun yaradılması hədəflənir. Bundan başqa, digər emal və istehsal müəssisələrinin yaradılması nəzərdə tutulur. Habelə yeni aqroparklar, heyvandarlıq və fermer təsərrüfatları yaradılacaq. Bundan başqa, iplik və parça istehsalının təşviq edilməsi üçün güzəştli kreditlərin ayrılması, ipək və xalçaçılıq üzrə emal sahələrinin institusional təkmilləşdirilməsi, pambıq mahlıcı və ipliyi üçün məhsul subsidiyasının tətbiq edilməsi nəzərdə tutulub. Eyni zamanda azı 2 yeni iplik və ya parça emalı müəssisəsinin dəstəklənməsi, pambıq mahlıcının iplik istehsalına yönəldilən hissəsinin, eləcə də ipliyin parça istehsalına yönəldilən hissəsinin artırılması planlaşdırılır.

Su və torpaq resurslarından səmərəli istifadə də aqrar sahənin inkişafında mühüm amillərdən biridir. Su itkisinin qarşısının alınması məqsədilə müasir suvarma sistemlərinin (yağışdırma və damlama) tətbiqinin genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə yeni su anbarlarının və infrastrukturun qurulması bu istiqamətdə görüləcək işlərdən biri kimi qarşıda durur. Torpaqlardan səmərəli istifadə aqrar inkişafın ən vacib elementlərindən biridir. Yeni ssenarilərə əsasən, məhsuldarlığı maksimum artırmaq və torpaqların dəqiq analizi aparılacaq ki, məqsəd hansı ərazidə hansı torpaq sahəsində hansı məhsulun yetişdirilməsinin daha məqsədəuyğun olmasını müəyyənləşdirməkdir.

Kənd təsərrüfatı texnikası ilə təminat, gübrə istehsalının artırılması da ən zəruri faktorlardan sayılır. Xüsusilə də, son aylarda dünyada gübrə tədarüklərində yaranan böhranlar Azərbaycanın bu sahəyə diqqətini daha da artırıb. Ölkəmizdə fəaliyyət göstərən Karbamid zavodu yerli tələbatı ödəyir, hətta bir çox ölkənin azot gübrələri ilə təminatında rol oynayır. Ancaq bu, cəmi bir növ gübrədir və aqrar sahədə bir çox növ gübrələr tələb olunur. Bu baxımdan gübrə istehsalı çeşidinin artırılması və qarşıqı gübrə istehsalı kompleksinin yaradılması üçün xarici şirkətlərlə müzakirələr aparılır. Həmçinin dayanıqlı su təchizatının təmin edilməsi, subsidiya və güzəştli maliyyələşmə mexanizminin təkmilləşdirilməsi də əsas prinsiplər sırasındadır.

### Rəqabətədavamlı istehsal və emal müəssisələrinin yaradılması

Rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması məqsədilə istehsalçıların müvafiq resurslara, o cümlədən əlverişli maliyyə resurslarına asan çıxışının təmin edilməsi, bazar infrastrukturunun və aqrar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsi də müasir çağırışlardan biridir. Bundan başqa, intensiv bağçılığın genişləndirilməsi, o cümlədən azad edilmiş torpaqlarda salınan meyvə bağlarının sahəsinin artırılması, bölgələrdə yeni meyvə təsərrüfatlarının, istixana komplekslərinin yaradılması əsas prioritetlərdəndir.

Aqrar sahədə inkişafın əsas mənbəyi məhsuldarlıq, texnologiya və innovasiya əsaslı intensiv inkişaf sxeminə əsaslanır. Bu məqsədlə kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrində resurslardan səmərəli istifadəyə əsaslanan müasir və iqlimə davamlı istehsal modelinin formalaşdırılması, aqrar-emal və logistika infrastrukturunun inkişaf etdirilməsi, eləcə də ərzaq təhlükəsizliyinin və ixrac potensialının gücləndirilməsi istiqamətində kompleks və əlaqələndirilmiş dövlət siyasətinin davam etdirilməsi nəzərdə tutulur.

### Azad ərazilərdə kənd təsərrüfatının inkişafı

Uzun illər Ermənistanın işğalı nəticəsində kənd təsərrüfatına yararlı 600 min hektara yaxın torpaq sahəsi ölkəmizin aqrar inkişafından kənarda qalıb. Belə ki, 231 min hektar əkin, 352 min hektara yaxın örüş-otlaq və biçənək sahəsinin illər boyu istifadə edilməməsi sayəsində min tonlarla taxıl, pambıq, kartof, üzüm, tütün, tərəvəz məhsulları kənd təsərrüfatını ümumi balansına ciddi təsir edib. İşğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini həmin ərazilərdə istehsal olunan məhsullar təmin edirdi.

Göründüyü kimi, işğaldan azad olunan ərazilərin kənd təsərrüfatının inkişafı baxımından potensialı çox genişdir. Bu potensialdan səmərəli istifadəyə nail olunması üçün müvafiq tədbirlərin görülməsi olduqca zəruridir və azad ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı ilə də bağlı dövlət başçısı tərəfindən hökumət üvlərinə tapşırıqlar verilib. Həmin tapşırığa əsasən, ərazilərin minalardan təmizlənməsi ilə yanaşı, torpaqların bərpa edilməsi və təsərrüfatların istifadəsinə verilməsi üçün müvafiq işlər görülməkdədir. Həm əkinçilik, həm də heyvandarlığın intensiv amillər hesabına inkişafı imkanları nəzərdən keçirilir. İşğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatının inkişaf perspektivləri olduqca güclüdür və bu potensialdan səmərəli istifadə ölkəmizdə aqrar sahədə istehsal həcmini ən azı 30-40 faiz yüksəldə bilər.

Ümumilikdə, aqrar sahənin inkişafına dair Dövlət Proqramı 2026-2030-cu illərdə aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsini, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini, aqrar sahədə dəyər zəncirlərinin inkişaf etdirilməsini, fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur. Dövlət Proqramında çoxistiqamətli tədbirlər planının icrası üçün fermerlərlə dövlət qurumları, aqrar elm müəssisələri, təcrübəli mütəxəssislər, bank və kredit təşkilatları, biznes assosiasiyaları ilə daha çox koordinasiyanın qurulmasına ehtiyac vardır. Bu baxımdan, Dövlət Proqramı çərçivəsində keçirilən görüşlər qarşıda duran tədbirlərin, atılacaq addımların icrasında, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsində, fermerlər və sahibkarların milli istehsalın böyüməsi üçün mühüm prioritetlərə çatmaqda fəaliyyətinin təşviq olunmasında mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

# Milli Məclis Prezident və Birinci vitse-prezidentə təbrik məktubları ünvanlayıb



İyunun 12-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 qanun layihəsi daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova qarşıdan gələn 15 İyun Milli Qurtuluş Gününün əhəmiyyətindən bəhs edib. O bildirib ki, 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdikdən az sonra dövlətimiz parçalanmaq və məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir dövrdə böyük siyasi və dövlət xadimi Heydər Əliyevin ali hakimiyyətə qayıtması tarixin gedişini dəyişdirməyə imkan verdi. Spikerin sözlərinə görə, Ümummilli Lider xalqımızın öz dəyərlərinə sadiqliyini, dövlətçiliyini qorumaq və gələcəyini müəyyən etmək əzmini real siyasi gücə çevirdi: "Heydər Əliyevin dövlət rəhbərliyinə qayıtması xalqın tarixi seçimi idi. Ulu Öndər zamanın çağırışlarına cavab vermək qabiliyyəti sayəsində müstəqil dövlətimizi qoruyub saxladı və möhkəmləndirdi. Azərbaycan davamlı inkişaf yoluna çıxdı və onun geosiyasi əhəmiyyəti artdı. Ölkəmiz qlobal miqyaslı iqtisadi layihələrin mərkəzinə çevrildi. Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyətinin təhlili göstərir ki, müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev dühasının məhsuludur. Eyni zamanda, o, bugünkü Azərbaycan parlamentinin də banisidir".

**Deputatlar 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışıblar**

Spikerin sözlərinə görə, 1993-cü ildə və sonrakı dövrdə Ulu Öndərin həyata keçirdiyi milli qurtuluş missiyası ilə müasir Azərbaycanın nailiyyətləri arasında birbaşa əlaqə var. Torpaqlarımızın 30 illik işğalına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması, Azərbaycanın nüfuzlu və güclü bir dövlətə çevrilməsi, hər il, hər ay müşahidə etdiyimiz digər uğurlar Heydər Əliyev siyasi xəttinin ardıcıl surətdə davam etdirilməsinin nəticəsidir. Məhz buna görə də Milli Qurtuluş Günü təkcə tarixin bir anı deyil. Bu gün müstəqillik və dövlətçilik ideyalarının təntənəsidir. Gələcək nəsillər qarşısında məsuliyyət hissinin təcəssümüdür. Xalq ilə dövlətin birliyinin rəmzidir. "Milli Qurtuluş Günü ərəfəsində biz Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir daha ehtiramla yad edirik. Əmin olduğumuzu bildiririk ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da müstəqil inkişaf yollarında inamla addımlayacaq. Heydər Əliyev zəkasından güc almış Azərbaycan dövləti qarşıdakı dövrdə yeni böyük uğurlara imza atacaq. Mən təklif edirəm ki, Milli Qurtuluş Günü münasibətilə dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan dövlətinin bugünü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq",- deyə S.Qafarova vurğulayıb.

Daha sonra Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, parlamentin komitə sədri Zahid Oruc, deputatlar Göydəniz Qəhrəmanov, Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Vüqar İskəndərov və digərləri çıxış edərək 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətini diqqətə çatdırıblar.

**Ötən il ÜDM 1,4 faiz artıb**

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. İlk olaraq "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsinin qanunvericiliklə nəzərdə tutulmuş vaxtda və formada Milli Məclisə daxil olduğunu, bununla bağlı Hesablama Palatası tərəfindən müvafiq rəyin hazırlandığını qeyd edib. O, ölkə Prezidentinin təşəbbüsü ilə ötən ildən dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı institusional xarakterli, eyni zamanda, rəqəmsal dövlət maliyyəsi informasiya sisteminin formalaşdırılmasını əhatə edən, həm də səmərəli icra və nəzarət mexanizmlərinin yaradılmasını nəzərdə tutan mühüm islahatlara başlanıldığını vurğulayıb. Komitə sədri dövlət maliyyəsinin idarə edilməsi sahəsində islahatların parlament müstəvisində də büdcə hesabatlılığının təkmilləşdirilməsinə töhfə verəcəyini söyləyib.

Sonra maliyyə naziri Sahil Babayev çıxış edərək 2025-ci il dövlət büdcəsinin icrası haqqında ətraflı məlumat verib. Onun sözlərinə görə, Azərbaycanın 2025-ci il üçün dövlət büdcəsi ölkənin inkişaf prioritetlərinə uyğun, maliyyə dayanıqlığı və sosial öhdəliklərin tam yerinə yetirilməsi prinsiplərinə müvafiq şəkildə icra edilib: "Hesabat dövründə büdcə həm iqtisadi artımın dəstəklənməsinə, həm sosial öhdəliklərin tam icrasına, həm də işğaldan azad olunmuş ərazilərin bərpasına xidmət edib, Azərbaycanın 2030-cu ilədək milli prioritetlərinə doğru irəliləyişi təmin edib".

Nazir bildirib ki, 2025-ci ildə Azərbaycanda ümumi daxili məhsul real ifadədə 1,4 faiz artıb və 129,1 milyard manat təşkil edib. 2025-ci ildə adambaşına düşən ümumi daxili məhsul artaraq 12,6 min manat olub. S.Babayev qeyd edib ki, iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun dinamik inkişafı nəticəsində, 2025-ci ildə qeyri-neft sektorunda 2,7 faiz real artım əldə olunub, ÜDM-in 72 faizi və yaxud 92,3 milyard manatı qeyri-neft sektorunun payına düşüb ki, bu da 2024-cü illə müqayisədə mütləq ifadədə 6,1 milyard manat çoxdur. "Qeyri-neft ixracı 8,1 faiz artaraq 3,6 milyard dollara çatıb. Profisitli tədiyə balansı, monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi nəticəsində məzənnə sabitliyi qorunub. 2025-ci ilin dekabr ayında illik inflyasiya 5,2 faiz, orta illik inflyasiya isə 5,6 faiz təşkil etməklə hədəf diapazonunda qalıb", - deyə S.Babayev söyləyib.

**2025-ci ildə büdcə gəlirləri 39,2 milyard manat təşkil edib**

Onun sözlərinə görə, hesabat ilində əhalinin adambaşına düşən nominal gəlirləri 7,6 faiz, orta aylıq nominal əməkhaqqı 9,3 faiz artıb və bu göstəricilər inflyasiya səviyyəsini xeyli üstələyib ki, bu da ölkədə sosial rifahın yaxşılaşdığını təsdiq edir. Nazir 2025-ci ildə "Azəri light" markalı xam neftin bir barelinin dünya bazarlarındakı satış qiymətinin orta hesabla 71 ABŞ dolları səviyyəsində qərarlaşdığını, büdcədə nəzərdə tutulmuş qiymət göstəricisi ilə müqayisədə 1,4 faiz artım olduğunu qeyd edib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov isə çıxışında bildirib ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri müstəqilliyimizdən bəri ən yüksək həddə çataraq 39,2 milyard manat təşkil edib. Palatanın sədri gəlirlərin həcminin əhəmiyyətli artımı fonunda eynilə xərclər üzrə müşahidə edilən tarixi artım nəticəsində mütləq rəqəmin 38,6 milyard manat olduğunu diqqətə çatdırıb. "Lakin xərclər üzrə son 10 ildə ən aşağı icra faizi məhz ötən il - 93,2 faiz nisbətində müşahidə edilib, proqnozla müqayisədə büdcə xərcləri 2,8 milyard manat az icra olunub. Bu da digər fiskal intizam parametri olan büdcə balansına təsir edib", - deyə Hesablama Palatasının sədri diqqətə çatdırıb.

Müzakirələrdən sonra qanun layihə birinci oxunuşda qəbul olunub.

**Uşaqlar üçün internet məhdudiyyəti...**

İclasda, həmçinin "İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda qəbul edilib. Qanun layihəsi rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Layihə hazırlanarkən qabaqcıl beynəlxalq təcrübə təhlil edilib. Bu xüsusda, sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün minimum rəqəmsal yetkinlik yaş həddi 16 yaş müəyyən olunub. Layihədə 16-18 yaş qrupunun platformalarda fərdi rəqəmsal hesab yaratması, ondan istifadə etməsi və kontent paylaşması yalnız qanuni nümayəndəsinin razılığı və nəzarəti altında mümkün olacağı nəzərdə tutulur. Həmçinin platforma provayderlərinin uşaqların təhlükəsizliyinin təmin edilməsi, zərərli məzmunun qarşısının alınması, fərdi məlumatların qorunması, təhlükəli məlumatların operativ şəkildə silinməsi və dövlət orqanları ilə əməkdaşlıq etməsi ilə bağlı vəzifələri müəyyən edilir. Qanun layihəsi ilə İnzibati Xətalar Məcəlləsinə yeni maddələrin əlavə edilməsi nəzərdə tutulur.

Layihənin keçid müddəalarına əsasən, qanun qüvvəyə mindiyi gündən etibarən sosial şəbəkə platformalarına yeni tələblərə uyğunlaşmaq üçün müəyyən müddət verilir. Sənədin qəbul edilməsi uşaqların rəqəmsal mühitdə hüquqlarının müdafiəsinin gücləndirilməsinə, təhlükəsiz informasiya mühitinin formalaşdırılmasına, sosial şəbəkə platformalarının fəaliyyətinə dair hüquqi mexanizmlərin təkmilləşdirilməsinə və dövlət nəzarəti imkanlarının artırılmasına xidmət edəcək.

Qeyd edək ki, millət vəkilləri iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

***Nardar BAYRAMLI***

# Prezident Administrasiyasında Qiyas Sadıqov ilə görüş keçirildi

## İqtidar-müxalifət dialoqu davam edir

### Prezident Administrasiyasında Azərbaycan Xalq Partiyasının sədri ilə görüş olub

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Xalq Partiyasının sədri Qiyas Sadıqov ilə görüşüb.

Partiyanın Mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı Azərbaycan Xalq Partiyasının fəaliyyəti, ölkədə formalaşmaqda olan yeni siyasi konfiqurasiya çərçivəsində aparılan islahatlar, habelə dünya və regionda cərəyan edən proseslər müzakirə olunub. Bildirilib ki, siyasi partiyaların inkişafı istiqamətində dövlət tərəfindən atılan hər bir addım bilavasitə ali siyasi iradənin təzahürüdür və ölkədə fəaliyyət göstərən partiyalar yaranmış bu münbit mühitdən mütləq istifadə etməlidir.

Siyasi partiyaların ölkənin ictimai həyatında daha fəal mövqe tutması bilavasitə demokratik münasibətlərin təzahürü kimi qiymətləndirilib və bildirilib ki, sözügedən proses Azərbaycanın milli dövlətçilik ənənələrinin dərinləşməsinə xidmət edir. Cəmiyyətdə ictimai konsensusun qorunmasına yönəlmiş sağlam iqtidar-müxalifət dialoqunun inkişafı bütün vətənsevər qüvvələrin marağına cavab verməlidir. Qeyd olunub ki, bu mənada siyasi dialoqda iştirak etmək demokratik inkişafa dəstək göstərmək deməkdir.

Fikir mübadiləsi çərçivəsində həmçinin vaxtaşırı təkrarlanan qərəzli informasiya manipulyasiyalar ilə mübarizədə siyasi partiyaların rolu xüsusilə vurğulanıb. Bildirilib ki, Azərbaycan ilə əlaqədar obyektiv və adekvat məlumatların beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması kimi strateji məsələlərdə dialoqda iştirak edən siyasi partiyalar daha aktiv mövqe nümayiş etdirməlidir.

44 günlük Vətən müharibəsində əldə olunmuş Qələbədən sonra Azərbaycanın müasir tarixində yaşanan yeni inkişaf mərhələsi həm də Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə ölkəmizdə təşviq olunan siyasi dialoq mühiti ilə səciyyələndiyi qeyd olunub. Belə ki, siyasi sabitliyin qorunmasında partiyaların demokratik siyasi təsisat kimi rolu vurğulanıb və qeyd olunub ki, son 5-6 il ərzində mövcud istiqamətdə aparılan islahatlar məhz qeyd olunan vəzifəyə xidmət edir.



Dayanıqlı inkişafda müstəsna əhəmiyyət daşıyan siyasi sabitliyin və milli dövlətçilik ənənələrinin qorunması sədrlik etdiyi Partiyanın ali məqsədlərindən olduğunu bildirən Qiyas Sadıqlı mövcud istiqamətdə aparılan əməkdaşlıq əlaqələrinə daim sadiq qalacağını vurğulayıb.

Prezident Administrasiyasının rəsmisi görüşün sonunda dövlət və cəmiyyətin inkişafına xidmət edən sağlam əməkdaşlıq ruhuna cavab verən fəaliyyətdə Azərbaycan Xalq Partiyasına uğurlar arzulayıb.

# İqtisadi Şuranın iclasında

## Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təşkili, logistika, xidmət və digər inkişaf sahələrinin perspektivləri müzakirə olunub

İyunun 11-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasında Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təşkili ilə bağlı görülmüş işlər, həlli vacib infrastruktur məsələləri, strateji baxış və inkişaf perspektivləri, eləcə də xidmət sektorunun iqtisadi artımda rolu və inkişaf potensialı, bu sektorda müəyyən edilmiş prioritet istiqamətlər və digər məsələlər müzakirə olunub. Gündəlikdə olan məsələlər üzrə Prezidentin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, iqtisadiyyat naziri Mikayıl Cabbarovun təqdimatları dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və Ələt Azad İqtisadi Zonasının İdarə Heyətinin sədri Valeh Ələsgərov çıxış ediblər. İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müvafiq qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

### Ələt Azad İqtisadi Zonası logistikanın qapısına çevrilir

Ələt Azad İqtisadi Zonası (AFEZ) hazırda Azərbaycanın regiona nəqliyyat qapılarından biri kimi beynəlxalq əhəmiyyətini artırmaqdadır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yerləşən, investorlara xüsusi vergi və gömrük güzəştləri, müstəqil hüquqi tənzimləmə bazası təklif edən qabaqcıl logistika və istehsal mərkəzi olan Zonanın əsas fəaliyyət məqsədi yüksək əlavə dəyər yaradan, innovativ texnologiyalara əsaslanan və əsasən ixracyönümlü məhsullar istehsal edən xarici və yerli müəssisələri cəlb etməkdir. Ərazisi 1453 hektara qədər genişləndirilmiş Zonada istehsal olunan məhsulların ən azı 75 faizi Azərbaycanın xarici bazarlarına ixracını nəzərdə tutur ki, bu istiqamətdə davamlı işlər görülməkdədir.

Ölkəmizin iqtisadi inkişafı üçün müstəsna əhəmiyyət daşıyan Ələt Azad İqtisadi Zonası ticarət dövriyyəsinin artmasında da xüsusi model kimi diqqəti cəlb edir. Bu ərazidə yerləşən müəssisələrə investisiya axınının artması yeni iş yerlərinin yaradılması, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasının sürətlənməsi, ixtisaslı kadrların təhsil və peşə təcrübələrinin artırılması imkanlarının genişlənməsi baxımından da əhəmiyyət kəsb edir.

Hazırda əsas hədəflərdən biri Ələt Azad İqtisadi Zonasında yüksək texnologiyalar cəlb etməklə idxalı əvəzləyən, ixrac yönümlü malların istehsalının təmin olunmasıdır. Xarici tərəfdaşların bu layihələrə cəlb edilməsi, xüsusilə də son dövrlərdə Böyük Britaniya, Türkiyə, Çin, Ərəb ölkələrinin sərmayəçilərinin Zonaya cəlb edilməsi istiqamətində uğurlu nəticələr əldə olunmaqdadır. Bu isə xarici investorlarla birgə innovasiya zəncirinin qurulması və malların Avropa, Mərkəzi Asiya, Yaxın Şərq, eləcə də İran və Rusiya bazarlarına çıxışı üçün münbit şərait yaradır.



Ələt Azad iqtisadi Zonası infrastruktur baxımından da çox cəlbedicidir. Vüsal Qasımlının sözlərinə görə, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən sözügedən zonanın yaxınlığında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı fəaliyyət göstərir. Ərazidən avtomobil və dəmir yolları keçir. Bundan əlavə, Heydər Əliyev adına Beynəlxalq Aeroport məsafə baxımından çox da uzaqda deyil. Bütün bunlar onu deməyə əsas verir ki, Ələt Azad İqtisadi Zonası Azərbaycanın nəqliyyat logistika qovşağı kimi mövqeyini bir qədər də gücləndirəcək.

### Xidmət sektorunun iqtisadi artımda rolu

İclasda əsas diqqət mərkəzində dayanan istiqamətlərdən biri xidmət sektorunun iqtisadi artımda rolu və inkişaf potensialı ilə bağlı olub. Xidmət sektoru qlobal iqtisadiyyatda əsas inkişaf sütunlarından biridir. İnkişaf etmiş ölkələrin ÜDM-də xidmət sektorunun payı 60 faizdən çoxdur. Azərbaycanda da xidmət sektorunun müxtəlif istiqamətlərinin inkişafı prioritet əhəmiyyət kəsb edir. Turizm, nəqliyyat, rabitə xidmətləri kimi xidmət sektorunda xüsusilə əhəmiyyət daşıyır. Rəqəmsallaşma və qlobal inteqrasiya xidmət sahələrinin inkişafı üçün yeni tələbləri meydana çıxarır. Hazırda hədəf dövlət xidmətlərində "Rəqəmsal hökumət" modelinin təkmilləşdirilməsi, turizm və tranzit-logistika potensialının gücləndirilməsi, habelə qeyri-neft sektorunda xidmətlərin payının əhəmiyyətli dərəcədə artırılmasıdır. Azərbaycanda xidmət sektorunun inkişafında tranzit və logistikanın əhəmiyyəti də yeni imkanları artırır. Zəngəzurun açılması isə tranzit potensialının tam reallaşdırılması və beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyətliliyinin artırılmasında yeni qapılar açacaq. Eləcə də azad edilmiş ərazilərdə "yaşıl turizm" infrastrukturunun yaradılması, xidmət keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, regional turizm klasterlərinin formalaşdırılması da münbit resurs imkanları deməkdir.

### Kommunal xidmətlərə əlçatanlığın təmin olunması

İqtisadi Şuranın müzakirə etdiyi digər istiqamət infrastruktur məsələləri, o cümlədən kommunal sahədə inkişaf perspektivləri ilə əlaqədar olub. Kommunal xidmətlər elektrik enerjisi, su və rəqəmsal əlaqə kimi vacib xidmətləri təmin etməklə iqtisadi və sosial inkişafı dəstəkləməkdə mühüm rol oynayır. Bu xidmətlər olmadan müəssisələr fəaliyyət göstərə bilməz və ev təsərrüfatları keyfiyyətli həyat sürə bilməz. Dünya Bankının biznes sorğularına görə, qlobal miqyasda müəssisələrin 30 faizindən çoxu elektrik təchizatını əməliyyatları üçün əsas məhdudiyyət kimi müəyyən edir. Elektrik təchizatındakı fasilələr firmanın məhsuldarlığına, gəlirlərinə və iqtisadi artıma zərər vurur. Eynilə, qeyri-kafi su təchizatı firma məhsuldarlığının azalmasına, mexanizmlərin sıradan çıxmasına və mənfəətin azalmasına səbəb olur. Eləcə də, əlverişli və etibarlı internetə çıxış rəqəmsal texnologiyaların istifadəsinin məhsuldarlığı artırdığı günümüzün rəqəmsallaşan dünyasında digər vacib elementdir.

Bu sahədə aparılan monitorinqlər göstərir ki, fiziki şəxslərin və biznes icmasının qarşılaşdıqları müxtəlif çətinliklər və problemlər hələ də qalmaqdadır. Həmçinin, tikinti sahəsində bir sıra xidmətlərə əlçatanlığın olmaması da biznesin əsas qayğılarından biridir. Məhz bu baxımdan həmin sahə üzrə islahatların davam etdirilməsi və kommunal xidmətlərə əlçatanlığın təmin olunması məqsədilə Altqrup yaradılıb. Qrupa kommunal xidmət qaydalarının keyfiyyəti, kommunal xidmət göstəriciləri və xidmətlərin şəffaflığı, kommunal sahədə xidmətlərin həyata keçirilməsinin səmərəliliyi və təhlükəsizliyi üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində müvafiq qurumlarla birgə yeni təkliflər hazırlamaq tapşırığı verilib.

İqtisadi Şuranın iclasında müzakirə olunan istiqamətlər üzrə növbəti addımların atılması qarşıya qoyulan hədəflərə çatmağa, o cümlədən, Ələt İqtisadi Zonasının mühüm trans-nəqliyyat qovşağının əsas seqmenti kimi mövqeyinin güclənməsi, həlli vacib infrastruktur layihələrin icrasını sürətlənməsi, xidmət sektorunun iqtisadi inkişafda rolunun daha da artması və digər sahələrdə islahatların genişlənməsinə mühüm təkan verəcək.

**ELBRUS CƏFƏRLİ**

# Qeyri-neft sektoru - Azərbaycanın iqtisadi gələcəyinin əsas təminatı

Dünya iqtisadiyyatında baş verən dəyişikliklər, enerji bazarlarındakı qeyri-sabitlik və yaşıl iqtisadiyyata keçid prosesi təbii resurslarla zəngin ölkələr qarşısında yeni çağırışlar müəyyənləşdirir. Bu gün neft və qaz ehtiyatlarına malik dövlətlər üçün əsas məsələ mövcud sərvətlərdən əldə olunan gəlirləri dayanıqlı iqtisadi inkişafa çevirmək, gələcək nəsillər üçün rəqabətqabiliyyətli iqtisadi model formalaşdırmaqdır. Azərbaycan da son illərdə məhz bu istiqamətdə ardıcıl siyasət həyata keçirən ölkələr sırasında yer alır.

Müstəqilliyin ilk illərində iqtisadiyyatın dirçəldilməsi və dövlətçiliyin möhkəmləndirilməsi baxımından enerji sektorunun rolu danılmaz olub. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası ölkənin iqtisadi inkişafının əsasını qoydu, xarici investisiyaların cəlb edilməsinə və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinə şərait yaratdı. Sonrakı dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət isə bu uğurların davamlı inkişaf modelinə çevrilməsinə yönəldi.



Müasir mərhələdə Azərbaycanın qarşısında duran əsas məqsədlərdən biri iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Bu istiqamətdə həyata keçirilən dövlət proqramları, institusional islahatlar, sənaye parklarının yaradılması, sahibkarlığın təşviqi və ixrac imkanlarının genişləndirilməsi iqtisadiyyatın yeni inkişaf mərhələsinə daxil olmasını şərtləndirib.

Rəsmi statistik göstəricilər də bu istiqamətdə müsbət dinamikanın müşahidə olunduğunu göstərir. 2025-ci ilin yekunlarına əsasən ölkədə ümumi daxili məhsulun həcmi 129,1 milyard manata çatıb. Həmin dövrdə neft-qaz sektorunda azalma müşahidə olunsa da, qeyri-neft-qaz sektorunda artım qeydə alınıb. Bu fakt iqtisadiyyatın yeni inkişaf mənbələrinin formalaşdığını göstərən mühüm göstəricilərdən biri hesab olunur.

Mütəxəssislərin fikrincə, qeyri-neft sektorunun inkişafı yalnız iqtisadi göstəricilərin yaxşılaşması ilə məhdudlaşmır. Bu proses həm də yeni iş yerlərinin yaradılması, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, ixrac imkanlarının genişləndirilməsi və ölkənin xarici iqtisadi təsirlərə qarşı dayanıqlılığının artırılması baxımından strateji əhəmiyyət daşıyır.

*Nərgiz Əhmədli,*
*Bakı Dövlət Universitetinin tələbəsi*

# Tariximizin şanlı səhifəsi - Milli Qurtuluş Günü









Sədərək rayonunda 15 İyun Milli Qurtuluş Günü "Tariximizin şanlı səhfəsi" mövzusunda silsilə tədbirlər keçirilib. Əvvəlcə Heydərabad qəsəbəsində Ulu Öndərimizin büstü önünə gül dəstələri düzülüb, əziz xatirəsi dərin ehtiramla yad edilib. Tədbir daha sonra rayonun Mədəniyyət Sarayında davam edib. Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə tədbirdə çıxış edərək bildirib ki, 15 İyun Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazılmış hadisədir. Həmin gün Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda o zaman hökm sürən dərin ictimai-siyasi böhrana son qoyulub, Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi aradan qaldırılıb və respublikamızda dövlət quruculuğunun, sosial-iqtisadi inkişafın təməli qoyulub.1993-cü ilin iyununda ölkədə yaranmış mürəkkəb ictimai-siyasi durum Azərbaycanda real vətəndaş müharibəsi təhlükəsi yaradıb.Vətəndaş müharibəsi üçün ciddi zəmin yarandığı vəziyyətdə təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC-Müsavat iqtidarı son anda kömək üçün Ulu Öndər Heydər Əliyevə müraciət edib. Naxçıvan MR Ali Məclisinin sədri olan görkəmli ictimai-siyasi xadim Ulu Öndər Heydər Əliyev xalqın təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəlib. Ölkəni vətəndaş müharibəsi təhlükəsindən qurtarmaq missiyasını üzərinə götürən Heydər Əliyev həyatını təhlükə altında qoyaraq Gəncəyə gedib və apardığı danışıqlar nəticəsində vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını alıb. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, bununla da, Azərbaycanın ən yeni tarixində növbəti və bu günə qədər davam edən uğurlu mərhələ başlayıb. 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi düşüb. 15 iyun tarixi 1998-ci ildən dövlət səviyyəsində bayram kimi qeyd olunur.

Tədbirdə YAP Sədərək rayon təşkilatının sədri Arif Qasımov çıxış edərək qeyd edib ki, 15 iyun Milli Qurtuluş Günü Azərbaycanın dəhşətli faciələrlə təkbətək qalmış dövründə dünya şöhrətli siyasətçi və müdrik dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ölkəmizdə şərəflə həyata keçirdiyi xilaskarlıq missiyası XX əsrə xalqımızın Milli Qurtuluş Günü tariximizin şanlı səhifəsi kimi qızıl hərflərlə yazılıb. "Milli Qurtuluş Günü" ərəfəsində baş verən hadisələrin əhəmiyyəti zaman keçdikcə daha da dərindən öyrənilir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin tarixi qayıdışından qaynaqlanan "Milli Qurtuluş Günü" ölkəmizin həyatında yeni dövrün əsasını qoymuş, müasir tariximizə müstəqil Azərbaycan dövlətinin qurulması mərhələsi kimi daxil olmuşdur: "Qurtuluş Azərbaycana nə verdi sualına cavab axtararkən ölkəmizin, muxtar respublikamızın və rayonumuzun bugünkü həqiqətlərini, mənzərəsini, vətəndaşlarımızın əhval ruhiyyəsini, bütövlükdə Azərbaycanın yaxşı gələcəyi üçün yaradılan imkanları, ən əsası isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının apardığı uğurlu siyasətin nəticəsi olan 44 günlük Qarabağ döyüşlərində Azərbaycanın qələbə zəfərini göstərmək lazımdır. Bütün bunlara çatmaq üçün Azərbaycan 33 illik bir yol keçmişdir. Qədirbilən xalqımızın tarixi yaddaşına həkk olunmuş "Milli Qurtuluş Günü" ölkəmizin hər yerində Ümummilli Liderimiz Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, xalqa göstərdiyi təmənnasız və fədakar xidmətə verilən böyük qiymət və minnətdarlıq hissi ilə yad olunur. Biz Yeni Azərbaycan Partiyasının üzvləri əldə olunan naliyyətləri qorumaq, Azərbaycanın gələcək firavanlığının təmin edilməsi istiqamətində Heydər Əliyev siyasətini davam etdirən, Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyev cənablarına daim dəstək olacağıq. Bu gün "Qurtuluş Günü"nü qeyd etməklə tarixi keçmişimizi unutmamalıyıq. Digər tərəfdən isə həmin hadisələrdən nəticə çıxararaq Azərbaycanda sabitliyin və inkişafın daimi olmasına çalışmalıyıq. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır, onun siyasəti isə daima davam edəcəkdir".

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Mahir İsmayılov və Yeni Azərbaycan Partiyasının üzvü Nəzrin Vəliyeva çıxış edərək bu tarixi gün münasibətilə bütün Azərbaycan xalqını təbrik ediblər. Tədbir "Tarixin şanlı səhfələri" filminə baxış və konsert ilə davam edib.

# 19 dövlət adından verilən bəyanat

## Ölkəmiz mina təhlükəsinə qarşı qlobal həmrəyliyin gücləndirilməsinə çağırış edir



Mina təhlükəsi Azərbaycan üçün çox həssas mövzudur və ölkəmiz bununla bağlı müxtəlif beynəlxalq platformalarda davamlı olaraq həyəcan təbili çalır. Azərbaycan növbəti dəfə Əlillərin Hüquqları haqqında Konvensiyanın Tərəf Dövlətlərinin XIX Konfransının ümumi müzakirələri çərçivəsində 19 dövlətdən ibarət regionlararası qrupun adından bəyanat səsləndirib. Bu barədə respublikamızın BMT yanında Daimi Nümayəndəliyi "X" sosial şəbəkəsində paylaşım edib. Qrupa Albaniya, Banqladeş, Belarus, Bosniya və Herseqovina, Kamboca, Qırğızıstan, Laos Xalq Demokratik Respublikası, Malayziya, Meksika, Oman, Pakistan, Panama, San-Marino, Səudiyyə Ərəbistanı, Tailand, Şərqi Timor və Azərbaycan daxildir.

Birgə bəyanatda qeyd olunub ki, dünya əhalisinin təxminən 15 faizi əlilliyi olan şəxslərdən ibarətdir. Sənəddə vurğulanıb ki, Əlillərin Hüquqları haqqında Konvensiyanın müddəaları bütün hallarda, o cümlədən mina, müharibənin partlayıcı qalıqları və əldəqayırma partlayıcı qurğuların təsirinə məruz qalan münaqişə və postmünaqişə şəraitində yaşayan əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsini təmin etməlidir.

**Son dərəcə dəhşətli qlobal faciə**

Sənəddə mina terrorunun fəsadları ilə bağlı beynəlxalq həmrəyliyin zəruriliyinə ayrıca diqqət çəkilib. Bəyanata qoşulan dövlətlər münaqişə və postmünaqişə dövrlərində əlilliyin qarşısının alınması istiqamətində beynəlxalq dəstəyin artırılmasına çağırıblar.

BMT səviyyəsində yayılan sənəddə mina terroruna qarşı mübarizədə və onun fəsadlarının aradan qaldırılması, mina qurbanlarına maddi və mənəvi dəstək göstərilməsi üçün beynəlxalq həmrəyliyin gücləndirilməsinə çağırış edilməsi təsadüfi deyil. Bu gün aydın şəkildə etiraf olunur ki, mina terrorunu hansısa bir məkanda baş verən lokal xarakterli hadisə kimi dəyərləndirmək mümkün deyil, bu, qlobal miqyaslı dəhşətli humanitar faciədir. Qeyd edək ki, minalarla mübarizə və təhlükəsizliyin təmin edilməsi məqsədilə 1997-ci ildə "Ottawa Mine Ban Treaty" sənədi qəbul edilib və hazırda 166 dövlət bu konvensiyanın üzvüdür.

Mina terroru hər il dünyada minlərlə mülki şəxsin ölümünə və ya ölümcül yaralanmasına, əlillik qazanmasına səbəb olur. Minaların Qadağan Edilməsi üzrə Beynəlxalq Kampaniya (ECHO) tərəfindən açıqlanan son hesabata (Daily Flash, 4 dekabr 2025) əsasən, dünyada il ərzində 6 mindən çox insan minalardan həlak olur.

Verilən məlumatlara görə, 60-dan çox ölkə və ərazi minalar və müharibənin partlayıcı qalıqları ilə çirklənib. Misir, Əfqanıstan, Kamboca, Bosniya və Herseqovina, Anqola, İraq, Suriya, Ukrayna ən çox təsirlənənlər arasındadır.

Myanma dünyada ən çox mina itkisi sayının qeydə alındığı bölgədir. Hesabat ilində bu ölkədə mina qurbanlarının sayı 2029 nəfərə çatıb. Suriyada itki sayı 1015, Əfqanıstanda 624 nəfər olub. Ukraynada bu rəqəm 293 nəfər təşkil edir.

"Landmine Monitor 2025" hesabatına görə, 2024-cü ildə minalardan və müharibənin partlayıcı qalıqlarından ölənlərin sayı dörd illik rekord həddə yüksəlib - 6279 nəfər ölüb və yaralanıb. Ölənlərin təxminən 90 faizi mülki şəxslər olub, onların təxminən yarısı uşaqlardır.

Mina terrorunun fəsadları yalnız insanların həyatına vurulan ziyanla məhdudlaşmır. Mina partlayışlarından, eyni zamanda, ana təbiət təsirlənir. Minalar ətraf mühitə bərpaolunmaz zərər vuraraq torpağın, canlılar aləminin deqradasiyasına səbəb olur. Buna görə də mina terrorunu həm də ekoloji terror kimi dəyərləndirmək mümkündür.

**Azərbaycan minalarla ən çox çirklənmiş 10 ölkə sırasında...**

Azərbaycan da üç onilliyi əhatə edən işğal dövründə dəhşətli müharibə cinayətləri ilə üz-üzə qalan ölkədir. Həmçinin respublikamız üçün mina terrorunun vurduğu ziyanın miqyası da çox böyükdür. Təkcə belə bir faktı vurğulamaq yerinə düşər ki, respublikamız dünyada minalarla ən çox çirklənmiş 10 ölkə siyahısında yer alır. Rəsmi məlumatlara görə, işğaldan azad olunmuş ərazilərdə təxminən 11 min 667 kvadratkilometr sahə mina və partlayıcı müharibə qalıqları ilə çirklənib. Bu, ölkə ərazisinin 13 faizindən çoxu deməkdir. Həmin ərazilərdə təxminən 1,5 milyon mina və naməlum sayda partlayıcı sursatın mövcud olduğu bildirilir.

Ölkəmizdə mina terrorunun fəsadlarının miqyası çox böyükdür. Son 30 il ərzində Azərbaycanda mina qurbanlarının ümumi sayı 3500 nəfərə çatıb. Onların 362-si uşaq, 38-i isə qadındır.

Mina terroru həmçinin postmüharibə dövründə də davam etməkdədir. 2020-ci il noyabrın 10-dan 2026-cı il 1 aprel tarixinədək 421 nəfər mina qurbanı olub. Onlardan 72 nəfəri həlak olub, 349 nəfəri müxtəlif dərəcəli xəsarət alıb. Son faciəvi hadisələrdən biri 14 aprel 2026-cı ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində baş verib. Qeyd olunan ünvanda Azərbaycan Mina Təmizləmə Agentliyinin (ANAMA) əməkdaşı Mətili Muğan Rəfayıl oğlu xidməti vəzifəsini yerinə yetirərkən tank əleyhinə mina partlayışı nəticəsində həyatını itirib.

Azərbaycanın Ağdam və Füzuli kimi rayonları mina sıxlığına görə dünyada ilk sıralardadır. Bu ərazilərdə nəinki binalar, hətta torpağın alt qatları da məhv edilib. Təsadüfi deyildir ki, Ağdamdakı dəhşətli dağıntıları görən xarici jurnalistlər onu "Qafqazın Xirosiması" adlandırıblar.

**Azərbaycanın daha səmərli fəaliyyəti - minalarla çirklənmiş ərazilərin təmizlənməsi milli prioritet kimi**

Azərbaycanın 19 dövlət adından BMT səviyyəsində yaydığı sənəddə xüsusilə milli minatəmizləmə potensialının yaradılması, inkişaf etdirilməsi və səmərəli fəaliyyət göstərməsinin vacibliyi diqqətə çatdırılıb. Həqiqətən də, minatəmizləmə fəaliyyəti uzun vaxt və böyük maliyyə tələb edən bir prosesdir. Bunu ayrı-ayrı ölkələrin timsalında da görmək mümkündür. Məsələn, keçmiş Yuqoslaviyanın tərkib hissəsi olan Xorvatiya müstəqillik uğrunda müharibədən sonrakı illərdə ərazilərinin sadəcə hərbi sursat və piyada əleyhinə minaların təmizlənməsinə 20 il vaxt sərf edib. 1998-ci ildən 2017-ci ilin sonuna qədər Xorvatiya hökuməti hərbi ərazilər istisna olmaqla, ümumilikdə 411 kv.km minalanmış sahəni (Xorvatiyanın bütün ərazisinin 0,73 faizi) təmizləyib.

Azərbaycan isə ərazilərin minalardan təmizlənməsinə həssas yanaşma sərgiləməklə daha səmərəli minatəmizləmə fəaliyyəti təşkil etməyə nail olub. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesini, əsasən, daxili resurslar hesabına həyata keçirir. Bu genişmiqyaslı fəaliyyət həm texniki, həm də maliyyə baxımından ölkə üzərinə böyük yük qoyur. Respublikamızda ərazilərin minalardan təmizlənməsi milli prioritet kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənməsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" fərmanı bu istiqamətdə atılan ən mühüm hüquqi addımdır. Bu sənəd təmizləmə prosesinin vahid mərkəzdən koordinasiyasını, effektivliyin artırılmasını və azad edilmiş ərazilərə "Böyük Qayıdış"ın sürətləndirilməsini hüquqi təminat altına alır.

Ölkəmizdə minatəmizləmə fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədilə prosesə həm dövlət, həm də özəl sektor cəlb edilib. Əsas icraçılar qismində Azərbaycan Mina Təmizləmə Agentliyi (ANAMA), Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti çıxış edirlər. Həmçinin dörd özəl şirkət bu prosesə cəlb edilib.

Prosesin maliyyə yükü də kifayət qədər böyükdür. Bu günlərdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat"a əsasən, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ayrılan 4454,9 milyon manat vəsaitdən 74,8 milyon manatı ərazilərin minalardan təmizlənməsinə xərclənib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanovun verdiyi məlumata əsasən, indiyədək 272 min hektardan çox ərazi minalardan təmizlənib. 251 minə yaxın partlayıcı qurğu aşkar edilərək zərərsizləşdirilib. Mütəxəssislərin qənaətinə görə, ölkənin illik təmizləmə gücü 65-70 min hektar civarındadır. Məsələn, 2025-ci ildə 69 min 205 hektar ərazi minalardan təmizlənib. Qarşıya qoyulan hədəf isə 2026-cı ilin sonuna qədər Qarabağda təmizlənmiş ərazilərin ümumi sahəsini 280 min hektara çatdırmaqdır.

**Beynəlxalq təşkilatların ikili standartlardan yanaşmaları**

Azərbaycan da minatəmizləmə fəaliyyətində beynəlxalq əməkdaşlığı genişləndirməyə çalışır. O cümlədən respublikamız minatəmizləmə sahəsində təkcə ayrı-ayrı dövlətlərlə deyil, həm də nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Bu çərçivədə, NATO ilə keçirilən son müzakirələr xüsusi əhəmiyyət kəsb edir. Görüşlərdə minaların təmizlənməsi prosesində Şimali Atlantika Alyansının texniki dəstəyi, təcrübə mübadiləsi və bu sahədə mümkün tərəfdaşlıq perspektivləri əsas müzakirə mövzusu olub. Bu, Azərbaycanın mina problemini qlobal təhlükəsizlik gündəminə daşımaq səylərinin bir hissəsidir.

Qardaş Türkiyə də minatəmizləmə fəaliyyətində Azərbaycana dəstəyini əsirgəmir. Bu ölkənin Xüsusi Mina Axtarma Təmizləmə qrupu azad ərazilərimizdə minatəmizləmə fəaliyyətinə qoşulub. Həmçinin Türkiyədən göndərilən mexaniki minadan təmizləmə maşınları mina axtarışlarının səmərəliliyinin artmasında mühüm rol oynayır. Bu texnika 25-27 sm dərinliyə qədər olan piyada əleyhinə minaları təmizləyə bilir.

Eləcə də Avropa İttifaqı (Aİ) və ayrı-ayrı dost ölkələr işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə fəaliyyətinə öz töhfələrini verirlər. Bununla belə minatəmizləmə sahəsində Azərbaycana göstərilən beynəlxalq dəstəyi yetərli saymaq mümkün deyil. Bir sıra hallarda biz beynəlxalq təşkilatların bu və ya digər ölkədə minalarla çirklənmiş ərazilərin təmizlənməsinə daha fəal şəkildə qoşulduqlarının və bu məqsədlə böyük həcmlərdə maliyyə vəsaiti ayırdıqlarının şahidi oluruq. Azərbaycana gəldikdə isə yenə də ikili standartlar ortadadır.

Rəsmi qurumların məlumatına görə, indiyədək beynəlxalq donorların yardımı respublikamızda minatəmizləmə fəaliyyətinə çəkilən ümumi xərclərin cəmi 4-5 faizini təşkil edir ki, bu da çox azdır. Azərbaycanın qarşısında 11 min kvadratkilometrdən artıq ərazidə basdırılmış, gizli şəkildə ən ağlagəlməz məkanlarda yerləşdirilmiş 1,5 milyondan artıq minaları təmizləmək vəzifəsi dayanır. Bunun üçün isə ölkəmizə beynəlxalq dəstəyin gücləndirilməsi vacibdir. Həmçinin beynəlxalq birlik Ermənistana minalarla çirkləndirilmiş ərazilərin dəqiq xəritələrinin verilməsində təzyiq göstərməlidirlər. İndiyədək Ermənistanın təqdim etdiyi xəritələr saxtadır və onların dəqiqlik göstəriciləri çox aşağıdır.

***Mübariz FEYİZLİ***

# Avropa "hərəkətə" keçdi...

## Üçlük Ukrayna məsələsini öz monopoliyasına almağa çalışır

### Aİ nə istəyir: itmiş nüfuzunu bərpa etmək, yoxsa...

Rusiya- Ukrayna müharibəsi ilə bağlı artıq uzun müddətdir davam edən sükut pozulmaqdadır. Belə ki, ABŞ-ın Yaxın Şərqdə gedən proseslərə diqqət kəsildiyi bir anda Avropa üçlüyü yenidən aktivləşməyə başlayıb. Qeyd edək ki, bu ilin əvvəlində Mərkəzi Avropada gedən münaqişə ilə bağlı danışıqlar prosesində iştirak etmək üçün can yandıran Aİ-yə məhz Vaşinqton tərəfindən "veto" qoyulmuşdu. İndiki halda isə prosesə müdaxilə imkanı qazanan "köhnə qitə" yeni danışıqlar masası yaratmağa çalışır.

**Moskvadan öncə London görüşü...**

Xatırladaq ki, bir neçə gün öncə Avropa üçlüyünün (Böyük Britaniya, Fransa və Almaniya) liderləri Londonda Ukrayna prezidenti Volodimir Zelenski ilə görüşüb. Görüşdən sonra münaqişə ilə bağlı birgə bəyanat yayıblar. Bəyanatda müharibəyə son qoymaq üçün Rusiya ilə danışıqlarda avropalıların və ABŞ-ın fəal iştirakına çağırış yer alıb. London görüşünün iştirakçıları qeyd ediblər ki, "Avropa istənilən həlldə mühüm rol oynamalıdır".

Bəyanatda qeyd olunur:

1. Təcili atəşkəs. Rusiyadan hərbi əməliyyatların tamamilə və dərhal dayandırılmasına razılıq verməsi tələb olunur.

2. Təmas xətti başlanğıc nöqtəsi kimi. Beynəlxalq sərhədlər güc yolu ilə dəyişdirilə bilməz. Ukraynanın öz təhlükəsizlik mexanizmlərini və müttəfiqlərini seçmək suveren hüququna tam hörmət edilməlidir.

3. Atəşkəsdən sonra Ukrayna üçün hüquqi cəhətdən məcburi təhlükəsizlik zəmanətləri - 2025-ci ilin dekabrında Berlində və 2026-cı ilin yanvarında Parisdə götürülmüş öhdəliklərə əsaslanaraq. Buraya Çoxmillətli Qüvvələrin - Ukraynada yerləşdirilməsi də daxildir

4. Dondurulmuş Rusiya aktivləri Rusiya təcavüzünə son qoya və Ukraynaya dəyən ziyanı kompensasiya edənə qədər dondurulmuş qalacaq.

5. Avropa təhlükəsizlik maraqlarının qorunması. Danışıqların istənilən elementləri Aİ və NATO ilə bağlı razılaşmalar müvafiq üzv dövlətlərin razılığını tələb edir.

Liderlər Zelenskinin ABŞ və Avropanın fəal iştirakı ilə Ukrayna ilə Rusiya arasında birbaşa dialoq təklifini dəstəkləyiblər. Onlar həmçinin Eviandakı G7 sammitindən, Könüllülər Koalisiyasından və NATO-nun Ankara sammitindən Ukraynaya dəstəyi əlaqələndirmək üçün necə istifadə edəcəkləri müzakirə ediblər. Tutucu raket istehsalının artırılması və raketdən müdafiə və dərin zərbə imkanlarının birgə inkişaf etdirilməsi zərurəti xüsusi olaraq qeyd edildib. Liderlər Rusiyanın genişmiqyaslı raket və pilotsuz təyyarə hücumlarını, o cümlədən "Oreshnik" raketlərinin təkrar istifadəsi, eləcə də "Rusiya dronlarının NATO ərazisinə məsuliyyətsiz müdaxiləsini" pisləyiblər.

**Bir saat yarım bağlı qapılar arxasında...**

Görüşün ardından iyunun 10-da Avropa üçlüyünün səfirləri Rusiya Xarici İşlər Nazirliyində dördtərəfli müzakirə aparıblar. Fransa, Böyük Britaniya və Almaniya səfirləri Nikolas de Rivyer, Naycel Keysi və Aleksandr Lambsdorff Rusiya Xarici İşlər Nazirliyinə baş çəkiblər və orada xarici işlər nazirinin müavini Mixail Qaluzinlə görüşüblər. Bir saat yarım davam edən görüşün ardından Fransa səfiri jurnalistlərə müzakirənin yaxşı keçdiyini söyləyib. Rusiya mətbuatının yazdığına görə, diplomatik nümayəndələrə Ukrayna böhranı ilə bağlı ölkələrinin rəhbərliyinin siyasətinin obyektiv qiymətləndirilməsi təqdim edilib. Vurğulanıb ki, Avropa ölkələri Kiyevin Rusiyaya qarşı müharibəni davam etdirməsi üçün maksimum stimul formalaşdırıb. Mixail Qaluzin səfirlərə xatırladıb ki, Qərb koalisiyası münaqişədə Rusiyaya qarşı tərəf kimi çıxış edir. O, diplomatlara müraciətində vurğulayıb ki, bunu "Qərb "könüllülər koalisiyası" birliyi də təsdiqləyir.

Qeyd edək ki, son həftələrdə Avropa İttifaqı (Aİ) liderləri münaqişə ilə bağlı müzakirələri intensivləşdirib. Hətta İtaliya parlamentdə çıxış edən Baş nazir Giorgia Meloni Rusiya ilə dialoq üçün səlahiyyətli Aİ nümayəndəsinin seçilməsinin vacibliyini bildirmişdi. Ən əsası isə Avropa ölkələrinin nümayəndələri ABŞ Prezidenti Donald Trampı 2025-ci ilin avqust ayında Alyaskada keçirilən görüşdə Rusiya lideri Vladimir Putinlə əldə edilən razılaşmalardan imtina etməyə çağırırlar. "Bloomberg" mənbələrə istinadən xəbər verib ki, gələn həftə keçiriləcək G7 sammiti zamanı Avropa liderləri Donald Trampın Rusiya ilə danışıqlara dəstəyini təmin etməyə çalışacaqlar. Mənbələr bildirib ki, Böyük Britaniya, Fransa və Almaniya nümayəndələri münaqişənin gedişatının Ukraynanın xeyrinə dəyişdiyi barədə fikir formalaşdırıblar. Buna görə də, onların fikrincə, Tramp və Putin arasında Ankoricdə əldə edilən razılaşmalar yenidən nəzərdən keçirilməlidir.



**Avropanın fəallaşması, yoxsa itirilmiş siyasi çəkini bərpa etmək cəhdi...**

Rusiya-Ukrayna müharibəsinin davam etdiyi bir vaxtda Avropa İttifaqının danışıqlar prosesində daha fəal rol almaq istəyi müxtəlif siyasi dairələrdə fərqli rakurslardan geniş müzakirə olunur. Bir sıra ekspertlər hesab edirlər ki, Avropa üçlüyü üçün bu proses təkcə müharibənin dayandırılması məsələsi deyil, həm də son illərdə zəifləyən beynəlxalq nüfuzun bərpası baxımından əhəmiyyət daşıyır. Xüsusilə son aylarda dünya siyasətində əsas təşəbbüslərin ABŞ tərəfindən irəli sürülməsi Avropa İttifaqının qlobal proseslərdəki təsir imkanlarının məhdudlaşdığı barədə fikirləri gücləndirib. Vaşinqtonun Çinlə münasibətlərin tənzimlənməsi istiqamətində apardığı danışıqlarda aparıcı mövqe tutması, İran məsələsində əsas aktor kimi çıxış etməsi və Cənubi Qafqazda sülh prosesinə açıq dəstək nümayiş etdirməsi Aİ-nin geosiyasi rolunun kölgədə qalmasına səbəb olub. Bu baxımdan Ukrayna böhranı Avropa üçün həm təhlükəsizlik, həm də siyasi nüfuz məsələsinə çevrilib. Bir çox siyasi analitiklər hesab edirlər ki, Aİ məhz Ukrayna məsələsində təşəbbüsü ələ almaqla beynəlxalq münasibətlər sistemində əvvəlki çəkisini qismən də olsa bərpa etməyə çalışır. Avropa paytaxtlarında formalaşan yanaşmaya görə, qitənin təhlükəsizliyi ilə bağlı əsas qərarlar Avropanın iştirakı olmadan qəbul edilə bilməz. Buna görə də xüsusilə Avropa üçlüyü danışıqlar platformalarında daha görünən rol almağa və prosesə təsir imkanlarını artırmağa çalışır. Bəzi analitiklər isə qeyd edirlər ki, Aİ-nin bu istiqamətdəki səyləri həm də iqtisadi səbəblərlə əlaqədardır. Sirr deyil ki, iqtisadi cəhətdən də Avropanın imkanları əvvəlki dövrlərlə müqayisədə daha məhduddur. Məhz bu səbəbdən Ukrayna ətrafında gedən diplomatik proseslər Avropa İttifaqının beynəlxalq sistemdəki gələcək mövqeyinin müəyyənləşməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

**Danışıqların məcrasını dəyişmək mümkün olacaqmı?**

Qərbli siyasi şərhçilərin əhəmiyyətli hissəsi Avropa üçlüyünün İttifaq adından Rusiya-Ukrayna müharibəsi ilə bağlı danışıqlar prosesində həlledici təsir imkanlarına malik olmadığını düşünür. Onların fikrincə, bunun bir neçə əsas səbəbi var. İlk növbədə, Aİ-nin hərbi potensialı ABŞ-la müqayisədə zəif hesab olunur. Avropa ölkələri son illərdə müdafiə xərclərini artırmağa çalışsalar da, qitədə təhlükəsizlik arxitekturasının əsas dayağı hələ də NATO və xüsusilə ABŞ olaraq qalır. Müharibənin miqyasının genişlənəcəyi təqdirdə Vaşinqtonun iştirakı olmadan təhlükəsizlik balansının qorunmasının çətin olacağı vurğulanır. İkinci mühüm amil Avropa daxilində Rusiyaya münasibətdə vahid mövqenin tam formalaşmamasıdır. Bir sıra ölkələr Moskva ilə iqtisadi və enerji əlaqələrinin qorunmasının tərəfdarıdır və bu da vahid strategiyanın yürüdülməsini çətinləşdirir. Hətta sanksiyalar dövründə belə bəzi Avropa dövlətlərinin müxtəlif formalarda Rusiya enerji resurslarından istifadə etməsi bu fikir ayrılıqlarının mövcudluğunu göstərir. Üçüncü səbəb isə Aİ-nin son illərdə iqtisadi və siyasi baxımdan əvvəlki təsir gücünü müəyyən qədər itirməsi ilə əlaqələndirilir. Qlobal iqtisadi rəqabətin sərtləşməsi, enerji böhranı və daxili siyasi problemlər Brüsselin beynəlxalq təşəbbüslərdə liderlik imkanlarını məhdudlaşdırıb. Bu səbəbdən bəzi ekspertlər hesab edirlər ki, Ukrayna məsələsində əsas qərarların yenə də ABŞ və Rusiya arasında aparılan danışıqlar nəticəsində formalaşması ehtimalı daha yüksəkdir. Onların fikrincə, Aİ-nin hazırkı fəallığı prosesi tam nəzarətə götürməkdən daha çox, gələcək siyasi düzəndə söz sahibi olmaq cəhdidir. Hazırda prosesə müdaxilə üçün addımların intensivləşməsi isə Avropanın tələsdiyini göstərir - Avropa Yaxın Şərqdə gedən proseslər yekunlaşmadan Ukrayna məsələsində mövqelərini gücləndirməyə çalışır. Çünki Vaşinqton digər geosiyasi istiqamətlərdə strateji üstünlük əldə edərsə, Ukrayna ilə bağlı təşəbbüslərdə Avropanın təsir imkanları daha da zəifləyə bilər.

**P.İSMAYILOV**

# Razılaşmanın əksər hissəsi təsdiqlənib

## ABŞ-la İran arasında memorandum gələn həftə imzalana bilər

ABŞ-la İran yekun sülhlə bağlı hələ də razılığa gələ bilmir. Xatırladaq ki, fevralın 28-də ABŞ və İsrail İrana qarşı hərbi əməliyyatlara başlayıb və bir sıra şəhərlərə hava zərbələri endirilib. Həmin gün zərbələr nəticəsində İranın Ali rəhbəri Əli Xamenei öldürülüb. İran buna cavab olaraq İsrail ərazisinə raket zərbələri endirib və Fars körfəzi ölkələrindəki ABŞ hərbi bazalarına hücum edib. İran, ABŞ və onların müttəfiqləri aprelin 8-nə keçən gecə atəşkəs razılaşmasına nail olublar. Tramp sonradan atəşkəsi qeyri-müəyyən müddətə uzadıb. Tərəflər münaqişəni həll etmək üçün Pakistanda danışıqlar aparıblar, lakin 11-12 apreldə keçirilən ilk raund heç bir nəticə verməyib.

ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya alıb. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub. Son günlər isə tərəflər qarşılıqlı olaraq hücum təşkil ediblər.

### Tramp hücumları niyə ləğv edib?

İyunun 11-də isə ABŞ Prezidenti Donald Tramp İrana qarşı planlaşdırılan növbəti hücumları ləğv etdiyini açıqlayıb. "Tehran ilə müzakirələrin İranın ən ali rəhbərliyinin çatdırıldığı və təsdiqləndiyinə əsaslanaraq, Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, bu axşam İrana qarşı planlaşdırılan hücumları və bombardmanları ləğv etdim. Müzakirələr və yekun məqamlar həm konsepsiya olaraq, həm də ətraflı şəkildə ABŞ, İsrail, Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər, Türkiyə, Pakistan, Bəhreyn, Küveyt, İordaniya, Misir və digərləri də daxil olmaqla, bütün ölkələr tərəfindən təsdiqlənib. Dəniz blokadası bu saziş bağlanana qədər qüvvədə qalacaq. İmzalanma vaxtı və yeri tezliklə elan ediləcək", - deyə Tramp əlavə edib.

Böyük Britaniyanın "The Guardian" qəzeti adı açıqlanmayan diplomatik mənbəyə istinadən məlumat yayıb ki, ABŞ və İran tərəfindən hazırlanan qarşılıqlı anlaşma memorandumu Tehranın nüvə proqramı ilə bağlı konkret həlləri ehtiva etmir. "Sənəd nüvə mövzusu, eləcə də dondurulmuş İran aktivləri məsələsi üzrə danışıqlar prosesinin davam etdirilməsi üçün zəruri olan mexanizmləri təsvir edir. Orada konkret razılaşmalar yoxdur", - deyə nəşr qeyd edib. Qəzetin mənbəsi, həmçinin deyib ki, memorandumda Hörmüz boğazının minalardan təmizlənməsi üçün müddətlər göstəriləcək. Bununla yanaşı, ABŞ minalardan təmizləmə prosesi tam başa çatana qədər İranın dəniz blokadasını saxlamaq niyyətindədir.



Diplomatın bildirdiyinə görə, memorandumun əsas parametrləri hələ bir neçə həftə əvvəl tərəflər arasında razılaşdırılıb. Bununla belə, mənbə vurğulayıb ki, danışıqlar prosesinin uğurla başa çatacağına heç bir zəmanət yoxdur. Diplomat sövdələşmənin müsbət nəticələnməsi ehtimalını 50 faiz olaraq qiymətləndirib. "Əhəmiyyətli dərəcədə potensial manelər mövcuddur", - o əlavə edib.

İyunun 12-də İranın Xarici İşlər Nazirliyinin yaydığı açıqlama da danışıqlar prosesinə nikbinlik yaradır. XİN-in rəsmi nümayəndəsi İsmail Beqai bildirib ki, Vaşinqtonun ziddiyyətli mövqeyinə baxmayaraq, İran və ABŞ arasında münaqişənin həlli ilə bağlı razılaşmanın əksər hissəsi artıq təsdiqlənib. "Mətnin əsas hissəsi praktik olaraq tamamlanıb. Problem həmişə prosesdə qarışıqlıq və pozuntulara səbəb olan ABŞ-ın ziddiyyətli mövqeyindədir", - deyən Beqai ABŞ ilə razılaşmanın yeri və vaxtı ilə bağlı bütün məlumatları fərziyyə adlandırıb. O qeyd edib ki, Qətər və Pakistandan olan vasitəçilər səylərini davam etdirirlər, lakin diplomatik proses ABŞ-ın təcavüzü nəticəsində pozulub.

### "Mehr": Memorandum 14 bənddən ibarətdir

CNN telekanalının yaydığı məlumatda isə bildirilir ki, İran nümayəndələri bu həftə Qətərin vasitəçiliyi ilə ABŞ-a sülh müqaviləsinin son variantını təqdim ediblər. Məlumata görə, Qətər İran nümayəndələri ilə aparılan görüşlər zamanı sənədə qalan bir sıra mübahisəli məqamların, o cümlədən nüvə proqramı ilə bağlı gələcək danışıqların prosedurunun və İslam Respublikasına qarşı tətbiq olunan sanksiyaların yumşaldılması məsələlərinin həllinə kömək edib.

İranın "Mehr" xəbər agentliyinin məlumatına görə isə Tehranla Vaşinqton arasında münaqişənin həlli ilə bağlı memorandum 14 bənddən ibarətdir. Memorandumda dəniz blokadasının 30 gün ərzində aradan qaldırılması və ABŞ qüvvələrinin İranla sərhəd ərazilərdən çıxarılması nəzərdə tutulur. Agentliyin iddiasına görə, Tehranla bağlanmış müqaviləyə əsasən, ABŞ və onun müttəfiqləri İranda infrastrukturun bərpası üçün azı 300 milyard dollar həcmində plan təqdim etməlidirlər.

### Tehran: Problem ABŞ-ın ziddiyyətli mövqeyindədir

"CBS News" nəşri isə iki mənbəyə istinadla gələn həftənin əvvəlində ABŞ və İran arasında niyyət məktubu və ya anlaşma memorandumu imzalanacağını yazıb. Qeyd edilib ki, bu, davamlı ABŞ-İran razılaşması ilə bağlı gələcək danışıqlara yol açacaq. Memorandumun imzalanması ilə ABŞ-İran razılaşmasının təfərrüatlarını müzakirə etmək üçün 60 günlük danışıqlar başlayacaq. Mənbəyə görə, bu müddət lazım olduqda uzadıla bilər.

Bildirilir ki, ilk addımlar minaların təmizlənməsi və Hörmüz boğazının açılması ilə ticarət azadlığının təmin edilməsini əhatə edir. İran uranı zənginləşdirməyəcək və 15-20 il ərzində nüvə obyektlərini sökəcək. Bu addımların qarşılığında İran zamanla mərhələli şəkildə maliyyə yardımı alacaq. Lakin Tehran bu razılaşmanın doğruluğunu hələ ki, təsdiqləməyib.

**N.BAYRAMLI**

# Virtuallıqla reallıq arasında...

## Gənclərin sərbəst olmaq arzusu onları tənhalığa apara bilərmi?



Müasir dövrdə sərbəstlik anlayışı gənclərin həyatında mühüm yer tutur. Texnologiyanın inkişafı, qloballaşma və fərdi hüquqlara verilən önəmin artması nəticəsində gənclər öz seçimlərini sərbəst etmək, həyatlarını müstəqil şəkildə qurmaq və şəxsi maraqlarını prioritet hesab etmək istəyirlər. Lakin bu proses bəzi hallarda fərdiyyətçiliyin güclənməsinə və sosial münasibətlərin zəifləməsinə səbəb olur. Bu baxımdan belə bir sual aktuallaşır: gənclərin sərbəstlik arzusu onları tənhalığa apara bilərmi?

Azad seçim hər bir insanın fundamental hüquqlarından biridir. Gənclər təhsil seçimi, peşə fəaliyyəti, yaşayış tərzi və şəxsi münasibətlər kimi məsələlərdə sərbəst qərar verməyə çalışırlar. Bu isə onların öz potensiallarını reallaşdırmalarına, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmələrinə və cəmiyyətə daha fəal inteqrasiya olunmalarına şərait yaradır. Sağlam, sərbəst olmaq hissi insanın özünəinamını artırır və məsuliyyətli fərd kimi formalaşmasına kömək edir.

Lakin sərbəst olmaq anlayışının bəzi hallarda yanlış başa düşülməsi müəyyən problemlər yarada bilər. Bəzi gənclər sərbəstliyi heç kimdən asılı olmamaq, məsləhət qəbul etməmək və sosial əlaqələri minimuma endirmək kimi dəyərləndirirlər. Nəticədə ailə münasibətləri, dostluq əlaqələri və ictimai ünsiyyət zəifləyir. İnsanlar daha çox virtual məkanda vaxt keçirməyə başlayır, real münasibətlər isə arxa plana keçir. Bu vəziyyət zamanla tənhalıq hissinin yaranmasına səbəb ola bilər.

Sosial şəbəkələrin geniş yayılması da bu prosesə təsir göstərən amillərdəndir. İlk baxışda sosial media insanları bir-birinə yaxınlaşdıran vasitə kimi görünür. Lakin çoxsaylı araşdırmalar göstərir ki, virtual ünsiyyət həmişə real emosional yaxınlığı əvəz edə bilmir. Minlərlə izləyicisi olan bir insan belə özünü tənha hiss edə bilər. Çünki insanın psixoloji rahatlığı üçün səmimi münasibətlər və canlı ünsiyyət mühüm əhəmiyyət daşıyır.

Digər tərəfdən, tənhalığın səbəbini yalnız sərbəstlik anlayışında axtarmaq düzgün olmazdı. Müasir həyatın sürətli tempi, iqtisadi çətinliklər, təhsil və karyera ilə bağlı stress, həmçinin rəqəmsal texnologiyaların həyatımıza təsiri də bu problemin formalaşmasında rol oynayır. Buna görə də sərbəstlik və tənhalıq arasında birbaşa səbəb-nəticə əlaqəsi qurmaq doğru deyil. Əsas məsələ "sərbəstliyin" necə dərk edilməsindədir.

Əslində, sərbəst olmaq insanı cəmiyyətdən uzaqlaşdırmamalı, əksinə, onun daha şüurlu və məsuliyyətli şəkildə sosial münasibətlər qurmasına imkan verməlidir. Sərbəst insan həm öz hüquqlarını bilir, həm də başqalarının hüquqlarına hörmət edir. O, müstəqil qərarlar qəbul etsə də, ailə və cəmiyyətlə olan bağlarını qoruyub saxlamağın vacibliyini anlayır.

Nəticə etibarilə, gənclərin sərbəstlik anlayışı bəzi hallarda onları tənhalığa apara bilər. Lakin bu, sərbəstliyin özündən deyil, onun yanlış qavranılmasından qaynaqlanır. Azad seçim sosial əlaqələrin zəifləməsinə deyil, insanın özünü və ətrafındakıları daha yaxşı anlamasına xidmət etməlidir. Sağlam balans qorunduğu təqdirdə, fərdi sərbəstlik və sosial bağlılıq bir-birini tamamlayan dəyərlərə çevrilə bilər.

*Aysu HÜSEYİNOVA,*
*Bakı Dövlət Universitetinin tələbəsi*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Şənbə üçün nəzm









*Səxavət Sahil*

***

Balaca bir nar kolu -
metrəyarımlıq.
Hələ budaq olmayan
sarımtıl şüvüllərdə qızarır
beş-altı payız narı.
Yarpaqları tökülüb
rüzgarın nəfəsindən -
çılpaq qalıb nar kolu.
Sevdiyim o qadının
uzunsov barmağına
bənzəyən şüvüllərdə
beş-altı sərçə qonub
yarpaqların yerinə.

***

Hələ heç kim
daş atmayıb gölə,
qurbağalar sabahadək
"canlı konsert verəcək".

Gecənin kədərinə
aram-aram
bayquş da töhfə verir
cansıxıcı səsiylə.

Qaranlığın canına
bir az da qorxu dolur -
bəlkə sabah olmadı?!
İçimdəki ümid də
yavaş-yavaş can verir.
Baxıram vahiməylə,
qaranlığın canından
neçə iblis doğulur.

***

Nar ağaclarının arasındakı ev
payızda miskin görünür.
Yarpaqsız budaqlar,
bozaran gövdələr
və kəllə kimi çürümüş nar qalağı.

Seyr elədikcə bu mənzərəni
elə bilirəm xarabalıqdayam,
cənuba köçən quşların əvəzinə
mərmilər uçub gəlib sanki.

Gecələr bu mənzərə
qara rəngin çalarında
daha da qorxunc görünür.
Ay çıxıb hərlənəndə isə
budaqların kölgəsi
yerdə ilan kimi sürünür.

Əslində bu çox sadədi
həm də xatirədi,
gözlərimi yumuram
hər yerdən, hər yerdən
uşaqlığım görünür.

***

Ömrüm nar qabığıdı,
acılı-şirinli illər kimidi
içindəki dənələr.

İsadan 7 gün sonra doğulmaq
bəlkə də xoşbəxtlik deyil
Məsihin fiziki əzablarını
8-ci günə daşımaqdır.
Müsəlman olsaq da,
İsadan öz payımızı götürmüşük -
hərənin öz əzabı var,
1982 il sonra doğulsaq belə.

Ömrün əvvəli və sonu olmur,
ömrün bədbəxtlik və
xoşbəxtlik bölgüləri var.

Xilaskar İsa,
xilas edə bilməsən də bizi
yenə də sənə minnətdarıq,
minnətdarıq ki,
əzab çəkməyi öyrədibsən.

Xilaskar İsa,
yenə də tənhayam,
heç olmasa tənhalıqdan xilas et məni.
Yeni ilin ilk günündəyəm
əlimdə şərab,
yenidən doğuluram,
yenidən doğuluram, yenidən.

Ölümdən sonra da
sevmək istəyirəm səni.
Ürəyim dayananda da
bədənim soyuyanda da
sevmək istəyirəm səni.

Yuyulub, kəfənə bükülləndə
üstümdə ağı deyiləndə
məzara qoyulanda da
sevmək istəyirəm səni.

Çürüyüb torpağa qarışanda da
ətim sümüyümdən ayrılanda da
sevmək istəyirəm səni.
Fevral şaxtasının bozartdığı
baharda tumurcuq açmağa
ümidi olan
nar budaqları kimi
sevmək istəyirəm səni.
Ölümdən sonra da
sevmək istəyirəm səni,
ölümdən sonra.

***

Bədənindən hərarət
keçmişdi mənə
qan dövranımın
sürəti artmışdı -
canımı qızışdırmışdın.

Şaxtalı qış günündə
nar budaqlarını isidən
günəş kimiydin.
Sən təkcə
gözəl qadın deyildin
yandırırdın həm də
atəş kimiydin.

***

Ehtiyac
Kasıb süfrəsində
isti çörək,
payızda səpilən
toxumluq buğdanın
gözlədiyi qar,
yarpağı sovrulan budaqda
tamahçəkən
soluxmuş nar kimi
sənə ehtiyacım var.

# Stanislavski teatrının sonu

## Çoxdan çatıb...



*Məqsəd Nur*

Onu səhnəmizdən və ideoloji ədəbiyyatdan ayırmasaq, uzun müddət tamaşaçıya doğru bağıra-bağıra qalacağıq. Halbuki pıçıltı lazımdır. Müasir insan öz pıçıltısını eşitmir: sosial media və kommunikasiyanın tovlayıcı həlqələri Adamın özünü teatra çevirir. Teatr o qədər yadlaşıb, elə "uzaqlaşıb" ki, az qala hər gün yanımızda - burnumuzun və barmaqlarımızın ucundadır. İndi biz onu yenidən yaradırıq. Stanislavskiyə nə hacət?

Sovet dövrünün populyar, ironik atmacası vardı: "Həyat teatrdır, insanlar isə bu teatrın aktyorları". Senzuralı sovet cəmiyyəti atmacasını da Şekspirdən götürürdü...

Stanislavski getdi, pafosu qaldı. O, səhnəni də, müəllifi də şişirtməyi bacarırdı. Şar o qədər şişdi ki, partlayışlardan qulaq çatladı. Bu da son...

Elə bir zaman gəlib ki, teatr da virtuallaşmaqda, texnologiyalarla ayaqlaşmaqda, vizuallaşmaqdadır. Mahiyyət, məzmun isə dəyişmir - insanı tərbiyələndirmək! Görünür, elə bu yanaşmada - təməldəcə yanlışlıq, direşmə var. Budur, türkəçarə bir həkim, "əməkdar" tiktoker virtualda möhtəşəm səhnə qurub, öz teatrını yaradıb. O da Stanislavski metodları ilə dirəşir, şişirdir, vizuallaşdırır, öz "daxili aləmini" üzə çıxarır və bizi tərbiyələndirməyə çalışır. Anlatmağa çalışır ki, biz nəyi isə düz etmir, ümumiyyətlə düzğün yaşamırıq. Belə çıxır, bu həkimin Stanislavskidən xəbəri də yoxdur, teatrın cəmiyyət qarşısındakı yüz illik xiddmətləri hələ də ünvanına çatmayıb, amma tiktokerimiz hər gün digərlərinin qapısını döyəcələyir, biz qapını açırıq və o içəri daxil olur...

Teatr həm də evdən uzaq, səmavi oyundur. Onun sehri danılmazdır. Muzeylərimizdə və mənəvi yaddaşımızda sənətinə borclu olduğumuz onlarla möhtəşəm aktyorumuz (eləcə də rejissor və digər teatr xadimlərimiz) var. Sovet bataqlığı böyük aktyorlarımızın Hollivuda gedib çıxmasına aman vermədi. Çatsaydılar nə olacaqdı? Ekran qəhrəmaları? Dünya əfsanəsi? Bu da sualdır...

Teatrı dəyişmək üçün mədəniyyətimizin, irsimizin alt qatlarında yatan dramaturgiyaya nəzər yetirmək lazımdır (Deyəsən, "qədim yunan" yaramadı). Yenə gəlib çıxdıq, "Mədəniyyət -2040" konsepsiyasına. Yoxsa ki, Stanislavski hələ də "saqqallı uşaq"larımızı tərbiyələndirməyə çalışacaq, Şekspir isə o tərəfdən başqa bir söz deyib işləri korlayacaq. Meydan və məzmunumuz var, axı. Ədəbiyyatımız, ərkanımız da eləcə...

# Sonuncu zəng çalınır!

## 116 min 550 şagird məktəblə vidalaşır...



"Son zəng" sadəcə bir mərasimin adı deyil, uşaqlıqdan gəncliyə aparan yolun ən unudulmaz dayanacağıdır. Sevinc və kədər bir-birinə qarışır, məzunlar bir tərəfdən yeni həyata doğru inamla addımlayacaqlarına sevinir, digər tərəfdən isə həyatlarının ən gözəl və qayğısız dövrü ilə vidalaşdıqlarını anlayaraq kövrəlirlər.

Bu gün ölkəmizdə 11-cilər üçün sonuncu zəng çalınır. Bu səs insan həyatının unudulmaz illərinin carçısı, həyəcanlı anlarının zümzüməsi kimi ətrafa səs salır. İllərlə eyni sinif otağında birlikdə gülən, öyrənən, böyüyən şagirdlərin həyatında yeni bir səhifənin açıldığı, köhnə xatirələrin isə qəlbin ən dərin guşəsində əbədi yer aldığı duyğularla zəngin bir gündür.

11-ci siniflər bu gün üçün xüsusi hazırlıq görürlər. Məktəblərdə xüsusi bir canlanma var. Kimisi şeir, mahnı axtarır, kimisi ssenari hazırlayır, müxtəlif formada maraqlı əyləncəli səhnəciklər planlayırlar. Bundan başqa, aidiyyəti qurumlar da "Son zəng"lə bağlı lazım olan tədbirləri görüblər.

Adətən "Son zəng"i MDB ölkələrində qeyd edirlər. Bir sıra ölkələrdə bu gün "Vida", "Əlvida", "Məzun günü", "Sonuncu gün" və s. adlansa da, "Son zəng" ifadəsi əsasən, Azərbaycan, Türkiyə və Rusiyada işlənilir. Məlum olduğu kimi, "Son zəng" SSRİ dövründə və dövlət müstəqilliyinin bərpasından sonra 2005-ci ilə qədər mayın 25-i qeyd olunurdusa, sonralar tarixlər də, qaydalar da dəyişdi.

**Dünyada "Son zəng" necə qeyd olunur?**

İspaniyada məzun geyimləri tamamilə fərqlidir. Bir çoxları bu libasları Roma Papasının geyiminə bənzədirlər. Məzunlar mavi rəngdə yuvarlaq formada böyük papaqlar taxırlar.

Yapon məzunlar yürüşə qatılır və diplomlarını almaq üçün sıraya düzülüb, mahnı oxuyurlar. Hətta Yaponiyada "Kanazava" kollecinin Məzun günü "ifritələr bayramı"na bənzədilir. Tələbələr Yaponiyanın milli geyimi - kimonolardan tutmuş, karton qutulara qədər hər şey geyinirlər.

Argentinada tələbələr Məzun günü bitdikdən sonra yemək yeyirlər. Məzunların ailələri və dostları ketçap kimi yapışqan sousları onların üzərinə atırlar. Bu ənənə İtaliyada da mövcuddur.

Çində qızlar Məzun günü geyinmək üçün gəlinlik sifariş verirlər. Ənənəvi tədbirlər çox vaxt reallaşmır və tələbələr xoş günlərini valideyn və qohumları ilə birgə qeyd edirlər.

**Neçə şagird məzun olur?**

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən (MÜTDA) verilən məlumata görə, bu il Azərbaycanda 116 min 550 şagird məzun olur. Onlardan 55 min 954 nəfəri qız, 60 min 596 nəfəri oğlan şagirdləridir.

Bu il işğaldan azad edilmiş ərazilərdə yerləşən ümumilikdə 25 ümumi təhsil müəssisəsində (11-də ilk dəfə olmaqla) "Son zəng" tədbiri keçiriləcək və 171 nəfər məzun məktəblə vidalaşacaq.

**DYP-dən məzunlara və valideynlərə müraciət**

DİN-in Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) "Son zəng" günü ilə əlaqədar məzunlara və valideynlərə müraciət edib. Həmin müraciətdə deyilir: "Ötən illərin təhlili göstərir ki, bəzi hallarda məzunlar və yeniyetmələr "Son zəng" günü valideynlərinə, qohumlarına və ya digər şəxslərə məxsus nəqliyyat vasitələrini idarə etməyə cəhd göstərir, yaxud onlara bu cür imkan yaradılır. Belə məsuliyyətsiz davranışlar isə əksər hallarda ağır yol-nəqliyyat hadisələri, insan itkisi, yaxud digər faciələrlə nəticələnir. Valideynlərə müraciət edərək onları övladları üzərində nəzarəti daha da gücləndirməyə, həyat və sağlamlığı təhlükə altına qoya biləcək davranışların qarşısını vaxtında almağa çağırırıq. Unutmaq olmaz ki, diqqətsizlik və ya səhlənkarlıq nəticəsində baş verən hadisələr sonradan ağır peşmançılıq doğuran, bəzən isə geri dönüşü olmayan nəticələrə səbəb olur.

Eyni zamanda, avtomobil icarəsi fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxsləri qanunvericiliyin tələblərinə ciddi əməl etməyə, nəqliyyat vasitələrini sürücülük hüququ olmayan şəxslərə təqdim etməməyə çağırırıq".

**Sürücülərə də çağırış edilib...**

Fövqəladə Hallar Nazirliyi isə "Son zəng"lə bağlı avtonəqliyyat vasitələri sürücülərinə müraciət edib. Müraciətdə qeyd olunub ki, təhsil müəssisələrində və kütləvi tədbirlərin keçirildiyi məkanlarda "Son zəng" və "Məzun günü" tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq avtomobil yollarında hərəkətin intensivliyinin və nizamsız parklama ehtimalının artacağı gözlənilir: "Belə vəziyyətdə nəzərə almaq lazımdır ki, yollarda hadisə yerinə tələsən xüsusi təyinatlı texnikalara, o cümlədən yanğınsöndürmə və xilasetmə avtomobillərinə yol verilməməsi, habelə nizamsız parklama baş verən yanğın, qəza və digər hadisələrin nəticələrinin operativ aradan qaldırılması və mümkün zərərin minimuma endirilməsi üçün həmin nəqliyyat vasitələrinin hadisə yerinə vaxtında çatmasına çətinlik törədir.

Həmçinin tikililərin giriş və həyətyanı ərazilərində, eləcə də avtomobil yollarının hərəkət hissəsində, yanğına qarşı su təchizatı sistemlərinə gedən yollarda və onların bilavasitə yaxınlığında avtomobillərin park edilməsi, habelə parklama ərazilərindəki nizamsızlıq və pərakəndəlik fövqəladə hadisə zamanı texnikaların operativ hərəkətinə və çevik döyüş vəziyyətinə gətirilməsinə mane olur, yanğınların söndürülməsi zamanı su hovuzları və hidrantlardan suyun götürülməsini çətinləşdirir, bəzi hallarda isə mümkünsüz edir.

Qeyd olunanları nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi avtonəqliyyat vasitələri sürücülərinə müraciət edərək onları müvafiq qaydalara riayət etməyə çağırır. Belə ki, avtonəqliyyat vasitələrinin sürücüləri yollarda operativ nəqliyyat vasitələri olan yanğınsöndürmə və xilasetmə avtomobillərinə dərhal yol verməli, həmçinin avtomobillər yalnız təyin olunmuş yerlərdə, bir-biri ilə ara məsafəsi gözləməklə, digər avtomobillərin sərbəst keçid imkanı təmin olunmaqla park edilməlidir".

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5361**
**Sifariş: 735**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova